

السلام عليك يااباعبدالله و على الأرواح التى حلت بفنائك
عليك منى سلام الله ابدا ما بقيت و بقى الليل و النهار ولا
جعله الله آخر العهد منى لزيارتكم السلام على الحسين و
على على بن الحسين و على اولاد الحسين و على اصحاب
الحسين

*Salam olsun sənə, ey Əba Əbdillah və salam olsun o ruhlara ki, sənin qarşında təzim etmişlər. Məndən sənə Allahın salamı olsun, nə qədərki, mən varam və nə qədər ki, gecə-gündüz bərqərardır. Allahdan istəyirəm ki, sənin bu ziyarətini mənim son ziyarətim qərar verməsin. Salam olsun Hüseynə, Əliyyibni Hüseynə, Hüseynin övladlarına, Hüseynin səhabələrinə.*



# *Azərbaycan mərsiyə ədəbiyyatına bir baxış*



***Bəşər müxtəlif millətlərə, müxtəlif dinlərə, müxtəlif dillərə bölünməsinə baxmayaraq hər zaman qəmi və sevinci eyni cür dərk edir, eyni hissləri keçirirlər və bu qəmi-sevinci sözlərlə büruzə verirlər. Insanlar qədim dövrlərdən şadlıqlarını ifadə edən nəğmələr, kədərli olmalarını bildirən hüznlü şeirlər yaratmışlar. Hələ eramızdan əvvəl 7-ci əsrdə Yunanıstanda elegeya adlı kədər, qəm və hüznü ifadə edin şeirlər yaranmağa başlamışdır. Şərq aləmində, xüsusi ilə Azərbaycanda da ilk mərhələlərdə oxşamalar, bayatılar, ağı və sağurlar yaranmağa başladı və bununla da insanlar öz qəmlərini, kədərlərini başqalarına çatdıramğa başladı. Daha sonralar isə, məna etibari ilə bunlara yaxın, lakin məzmun, üslub, dil və kompozisiya cəhətdən bir qədər fərqli olan mərsiyələr yaranmağa başladı. Əvvəllər məşhur şəxsiyyətlərin və hökmdarların ölümünə ithaf olunan bu ağılar, Kərbəla faciəsindən sonra Azərbaycanda mərsiyə ədəbiyyatı təşəkkül tapmağa başladı.***

Sizi mərsiyə ədəbiyyatı ilə yaxından tanış etməyi söz vermişdim. Bu yazıda da Azərbaycanda mərsiyə ədəbiyyatının yolu, Islam dininin qorunmasında olan böyük rolu barəsində söhbət açacağam. Lakin əsasən bu sayda mərsiyə ədəbiyyatı haqqında bildiklərimi nəzərinizə çatdıracağam. Allahın köməyi ilə gələn həftə isə məqtəllər barədə yazını nəzərinizə yetirəcəyəm. Mərsiyə ədəbiyyatının bir qolu olan şəbihgərdanlıq haqqında isə başqa bir zaman yazı hazırlayacağam.

Mərsiyə ədəbiyyatının Islamın qorunub saxlanmasında böyük rolu olmuşdur. Təkcə bunu qeyd etmək yetər ki, Sovet imperiyası dövründə heç bir dini ədəbiyyat olmadığı zaman insan təkcə mərsiyələrlə Kərbəla hadisələri haqqında məlumatlara yiyələnmiş, Imam Hüseyn (ə) şəxsiyyətini dərk etmişlər. Bundan əlavə mərsiyə ədəbiyyatı insanlara qəhrəmanlıq, amal uğrunda mübarizə aparmaq öyrədir.



Məşhur ədəbiyyatşünas Fürudin bəy Köçərli deyirdi: "Əgər iradü etiraf olunsa ki, kədər ilə səfa və qəm ilə sürur və yaş ilə nur bir yerdə ola bilməz, bunlar bir yerdə olduğu halda uyuşmaz, onda deyə bilərik ki, bəli, Imam Hüseyn müsibətində bir feyz vardır, bir yandan ağladır, bir yandan nuraniyyət bəxş edib şad qılır, bir yandan qəmləndirir, bir yandan qüssədən azad edir. Bir yandan şikəstəvü pərişanhal edir, bir yandan uca məqamlarda dövr etməyə pərü bal verir. Bu feyzü bərəkət, bu qeyri adi halət və xüsusiyyət ancaq Seyyidüş-şühəda müsibətü əzasına müxtəssdir, ancaq mahi-mühərrəmdə tərtib olunan təziyələrdə hiss

olunur…"

Bəli, Köçərlinin dediyi kimi, insan mərsiyə oxunan məclislərdə özgə bir hal tapır, nə qədər qəmlənsə də, qəlbi atəşlə dolur və başqa bir halət tapır.



Mərsiyə ədəbiyyatını əsasən iki yerə bölmək olar ki, bunlar özləri də sonradan bir neçə yerə bölünürlər:

1) Mərsiyə, novhə.

2) Məqtəl - Kərbəla hadisələri barədə olan iri həcmli mənzum və mənsur əsər.

Yuxarıda qeyd etmişdim ki, mərsiyə əsasən sağur, ağı və bayatılardan təşəkkül tapmışdır.

Bayatı və oxşamalar da iki hissəyə bölünür:

1)Kərbəla hadisəsindən əvvəl deyilən bayatılar;

Burada dini motivlər olmadığı üçün sadəcə olaraq bir bacı tərəfindən qardaşa və ya ana tərəfindən oğula nisbət deyilmişdir. Məsələn;

Ağlayan başdan ağlar,
Kiprikdən, qaşdan ağlar,
Qardaşı ölən bacı,
Durar obaşdan ağlar.

Əzizim belin bükər,
Kaman tək belin bükər,
Cavan oğul ölümü,
Ananın belin bükər.



Köynəyin ağ saxlaram,
Yuyaram ağ saxlaram,
Bir də qapıdan girsən,
Yüz il qonaq saxlaram.

2) Kərbəla hadisələrindən sonra deyilən bayatılar;

Burada atrıq hər bir ana öz övladı nəşi üstündə ağlayanda artıq övladını Əli Əkbərə bənzədir, və hər bir qardaşı ölən bacı qardaşını oxşayanda İmam Hüseyni (ə) və ya Əli Əkbəri yada salır. Məsələn;

Bu güli pərvərimdi,
Dilimdə əzbərimdi,
Qanlı əbadə gələn,
Əliyyü Əkbərimdi.

Əzizim, qarə bəxtim,
Açılmaz qarə bəxtim,
Ölübdür Əkbər oğlum,
Yatıbdır qarə bəxtim.

Sonradan bu bayatılar getdikcə kompleks şəklində oxunmağa başlandı. Yəni, 5-6 bayatının birləşməsindən şeir kimi, primitiv mərsiyə kimi oxunmağa başlandı. Məsələn belə bayatılardan Əbəlfəzin qardaşı Imam




Hüseynə deyimi kimi bayatılara nəzər salaq;

Ağa, ağa, can ağa,
Özün mənə yan ağa,
Dil ağzımda dolanmır,
Əzbəs gedüb qan, ağa.
Bəs hardasan? Gəl ağa,
Qanlıdı məqtəl, ağa,
Qurban verdim yolunda,
Bir göz, iki əl, ağa.
Çox eyləmə qəm, ağa,
Yıxıldı pərçəm, ağa,
Məni bu halda görsən,
Qəddin olar xəm, ağa.
Məni yada sal ağa,
Sorağımı al ağa,
Yorğun canım çıxınca,
Başım üstə qal, ağa.

Və getdikcə bu bayatılar tam şəkildə mərsiyəyə çevrilməyə başladı.

XII-XIII əsrlərdə mərsiyələr yaranmağa başlasa da hələ ki, bu mərsiyələr bayatı formasından tam olaraq qurtula bilməmişdi. Şah Ismayıl Xətainin bir mərsiyəsinə nəzər salaq:

Bu gün matəm günü gəldi,
Ah hüseynü va Hüseyn.
Sənin dərdin bağrım dəldi,
Ah Hüseynü va hüseyn.

Kərbəlanın önü yazı,
Ürəyimdən çıxmaz sözü,
Yezidlərmi qırdı sizi,
Ah Hüseynü va Hüseyn.

Bizimlə gələnlər gəlsin,
Sirrini meydana qoysun,
Hüseyn ilə şəhid olsun,
Ah Hüsyenü va Hüseyn.

Kəbəlanın yaziləri,
Şəhid düşdü qaziləri,
Fatma ana quzuları,
Ah Hüseynü va Hüseyn.

Bundan sonrakı zaman ərzində isə mərsiyə ədəbiyyatı nə qədər inkişaf etsə də ən uca zirvəyə XVIII-XIX əsrlərdə çatmışdır. Bu dövrdə mərsiyə ədəbiyyatında özünə məxsus yer tutan şairlərdən Mirzə Muhəmməd Təqi Qumri, Molla Muhəmməd Hüseyn Mərğeyi Dəxil, Hacı Əbülhəsən Raci, Hacı Rza Sərraf Təbrizinin bu ədəbiyyatın formalaşmasında böyük işlər görmüş və özünə məxsus məktəblər yaratmışlar ki, hələ də müasir şairlər həmin ədəbiyyat günəşlərinin şüasının əsərindən çıxa bilmirlər. Artıq bu zaman mərsiyə və novhələrin məqtəsi iki misra və sonrakı bəndlər isə 4 misradan ibarət olur. Bəzən bəndlərin arasında fərdlər olurdu ki, bu da qəsidə formasında olaraq həddən artıq qəmli şeirdir. Bundan da müasir rovzələr yarandı.

Məqaləni sonda mərsiyə və novhələrin bölünmə təsnifatı ilə bitirirəm:

1) Sədayi. Məsələn;
Baxdı çün Əkbərini nizədə Leyla üzünə,
Gördi zülfi tökülüb çün şəbi-yelda üzünə.
(M.Ə.Sabir)
Dur Şamə gedür Zeynəbi-nalan, anam oğli,
Canım yarali cismüvə qurban, anam oğli.
(H.Ə.Pərişan)

2) Cuşi. Məsələn;
Ey cismi parə-parə, məzlum ölən Hüseyn vay,
İsti qum üstə nəşi, ey bikəfən Hüseyn vay.
(H.Ş.Tuti)
Yarəb, bu nə qəmdü çarə olmaz,
Bir çarə bu ahü zarə olmaz.
(Dilsuz)

**İntiqam Rüstamov** (İHQ)

# İmam Hüseynin (ə) son vəsiyyəti



***Ayətullah Məzahiri İmamın (ə) son vəsiyyəti haqda buyurmuşdur: "Beşinci İmam Muhəmməd Baqirdən (ə) bu hədis nəql edilir. O, öz atası İmam Səccaddan (ə) və o, da İmam Hüseyndən (ə) belə nəql edir. Bu böyük İmam da öz atası Əmirəl-mömınindən (ə) nəql edir. Həmçinin belə nəql edilir ki, İmam Hüseyn (ə) və İmam Səccad (ə) ömürlərinin axırında, şəhadət zamanı bu hədisi vəsiyyət etmişdilər. Hər dörd İmam (ə) bu mövzunu bəyan etmişdilər. İki İmam (ə) həyatlarınını həssas anlarında bu hədisi nəql etmişdilər. Məlum olur ki, bu hədisin əhəmiyyəti böyükdür.***

Xüsusilə də İmam Hüseyn (ə) Aşura günündə o zaman ki, bütün səhabələri və dostları şəhid olmuşdular, yəni o həssas anlarda öz son vəsiyyətini həm övladlarına və həm də bəşəriyyətə söyləmişdir. Buyurur: "Ey övladım, Allahdan başqa yardımçısı olmayan hər kəsə zülm etməkdən çəkin".

Yardımçısı olmayan bir məzluma zülm etmək - bəzi hökumətlərin pənahı olmayan insanlara zülmü kimidir. Bəzi insanlar müəyyən bir millətə hakim olurlar, ona zülm edirlər. O millət də zalımkar qarşısında Allahdan baqşa yardımçı görmür. Bu zülm çox pislənən bir zülmdür. Belə ki, Peyğəmbəri-Əkrəmin (s) buyurduğu kimi şər insanların bir millətə hakim olması o millətin rəftarının nəticəsidir: "Ümmətimə elə bir zaman gələcəkdir ki, alimlərdən qaçacaqlar. Necə ki, qoyun canavardan qaçır. O zaman ki, belə olar, Allah onları üç bəlaya düçar edər: 1. Onların mallarından bərəkəti alar. 2. Zalım bir rəhbəri onlara hakim edər. 3. Dünyadan imansız gedərlər".

Müdirin işçisinə etdiyi zülm də böyük zülmdür. Xüsusilə o zaman ki, işçi onun əlinin altında işləməyə məcburdur. Əgər bu zülmü qəbul etməsə, işdən çıxarılar. Çox hallarda bu cür müdirlər bu vəziyyətlərdən sui-istifadə edirlər. İşçini istismar edirlər. Əlbəttə işçi də gərək işini yaxşı yerinə yetirsin. Az iş görməsin, işini keyfiyyətsiz görməsin. Çünki bu da zülm olar.

Zülmün başqa bir növü isə pənahı olmayan insanlara zülm etməkdir. O zülmdür ki, ailə üzvləri bir-birinə edərlər. Ərlə arvadın, valideynlərin övladlarına etdiyi zülm kimi. O zaman ki, qadının himayəçisi yoxdur, ərinin zülmünə dözməyə məcburdur. Ya da əri abrını qorumaq üçün arvadının zülmünə dözməyə məcburdur. Bəzən qoca ananın oğlundan başqa həyatda başqa bir kimsəsi yoxdur. Ona görə də bu oğlunun kinayəli sözlərini eşitməyə, onun əziyyətlərinə dözməyə məcburdur ki, bu da övlad tərəfindən böyük günahdır. Qurani-Kərim övladlara valideynlərinə ehtiram göstərməsini xüsusilə vurğulayır. Övladın vəzifəsini ən ağır bir vəzifə adlandırır: "Pərvərdigarın hökm etmişdir ki, Ondan başqasına pərəstiş etməyəsiniz. Ata və anaya yaxşılıq edin. Əgər onlardan biri və ya hər ikisi sənin yanında qocalarsa, onlara "uf" demə. Onların üstünə qışqırma. Onları özündən uzaqlaşdırma. Onlara yaxşı söz de".

Bu ayənin xüsusi nöqtəsi odur ki, Yeganə Allaha pərəstişlə bir yerdə valideynə ehtiram göstərmək lazımdır.

Övlada da zülm etmək bəyənilməyən əməldir. Əgər bir övlad ailə qurmaq istəyirsə, həssas vaxtıdır və onun kobud rəftarlarını valideynə hörmətsizlik kimi dəyərləndirməyin.

Zülmün başqa bir növü isə himayəçisi olmayan insana zülm etməkdir. Qeybət, töhmət və şayiə yaymaq kimi. Çox təəsüf ki, zülmün bu növü çox yayılmışdır. Başqasının abrını aparmaq, ona töhmət

vurmaq və onun haqqında yalançı şayiələr yaymaq - böyük zülmdür. Çünki Allahdan başqa yardımçısı yoxdur. Bütün bunlar haqqun-nasdır (insan haqlarındandır). Əgər insan bu haqqı yerinə yetirə bilməzsə, aqibəti yaxşı olmaz. "Başqalarına xəyanət etmək və abrını aparmaq – Allah Təala ilə vuruşmaq kimidir".

İmam Hüseyn (ə) Aşura günü bizim hamımızı bu zülmlərdən çəkinməyə dəvət etmişdir. İmam Hüseynin (ə) bu nurani hədisi ancaq öz zamanına aid deyildir. Bu hədis hələ də canlıdır və onun bizim dövrümüzdə də nümunələrinə rast gəlmək olur. Ona görə də zehnimiz ancaq Şimir ibni Zilcöşən, Ömər Səd və ya İbni Ziyadın Əhli-Beytə (ə) etdiyi zülmlərə cəmlənməməlidir. Bəlkə bizim özümüz İmamın (ə) dediklərinə əməl etməyə diqqət etməliyik. İnsanın abrını qorumaq - ən vacib məsələlərdəndir.

Əgər günahkar insanlar bu şeylərə diqqət etmədən dünyadan gedərlərsə, cəhənnəmdə yanarlar ki, günahlarının küdurəti aradan getsin. Pak olub, behiştə düşmək ləyaqətinə nail olsunlar. Allahın rəhməti o qədər böyükdür ki, cəhənnəm də Onun lütflərindəndir. İnsanları paklamaq və təmizə çıxarmaq üçündür cəhənnəm. Əgər insan zalım olarsa, xüsusilə də Allahdan başqa himayəçisi olmayan birinə zülm edərsə - yeri cəhənnəmdir. Cəhənnəmdə Allahın lütfündən istifadə etmək əvəzinə, orada da öz hoqqabazlığına davam etmək istəyir. Elə bilir ki, həyatdadır. Ancaq Allahla belə rəftar edə bilməyəcəyini bilmir. Əgər bu cür insanlar həyatda az bir müddət üçün nəyəsə nail olurlarsa, başqaları təsəvvür etməsinlər ki, Allahın bunlardan xəbəri yoxdur. Həqiqətdə Allah bu insanlara möhlət verir ki, nə qədər bacarırlarsa öz zülmlərini və günahlarını artırsınlar.

Quran buyurur: "Kafir olan şəxslər güman etməsinlər ki, bizim onlara möhlət verməyimiz onlar üçün xeyirlidir. Biz onlara möhlət vermişik ki, günahlarını daha da artırsınlar və onları alçaq edən bir əzab vardır". ("Ali-İmran", 178).

Ona görə də diqqətli olmalıyıq ki, Allahdan başqa yavəri olmayan heç kimə zülm etməyək. Əgər kimsə zülm edib və ya başqasının zülmünə seyirci olub və onu müdafiə etməyibsə, bu səhvini düzəltməyə çalışsın. Allah da onun bu təqsirini bağışlayar".



# Hüseyn Cavid

## (Kərbəla mərsiyəsi)



***Kərbəla padşahının adını eşidən kəs,***
***Dərhal o əza məclisinə matəm saxlar.***
***Matəm məclisində başına döyər,***
***Həmin məclisdə şah ilə gəda arasında fərq olmaz.***
***Ey ürək, sən bir an da bu müsibətdən qafil olma.***
***Cəza günündə onun şəfaətindən başqa heç bir***
***mükafat yoxdur.***
***Əgər bir an açıq gözlə baxsan,***
***Şəhidlər ağası, susuz şaha sən;***
***Fatimə bir küncdə kədərli oturduğunu görərsən.***
***O gecə nalə edərək, əza saxlamışdır.***
***Oğlunun cənazəsinə baxaraq, deyir:***
***Məgər sənin qatilin Allahdan şərm etməyib?***
***Zeynəb isə göz yaşlarını axıdaraq,***
***Səhərdən axşamadək şəhid şahına***
***matəm saxlamışdır.***
***Bir an, Arif, bu müsibətdən qafil olma,***
***Ariflər məclisinə sənin vücudun bir qənimətdir***

***(Fars dilindən sətri tərcümə)***



# Kərbəlada Qadınların öyrətdiyi dərslər

## Hicab

***Kərbəla qadınlarının bütün qadınlara, xüsusilə, müsəlman qadınlara öyrətdiyi dərslərdən biri də hicab dərsidir. Başda Həzrət Zeynəb (s.ə) olmaqla İmamın (ə) məhzərində iştirak edən qadınlar bütün dünyaya əməli surətdə sübut etdilər ki, qadın cəmiyyətdə iştirak edib boynuna düşən vəzifəni layiqincə yerinə yetirə bilər və bununla yanaşı, öz ismətini, iffətini, həyasını və hicabını Peyğəmbər (s) buyurduğu kimi qorumağı bacarar. Bəziləri elə başa düşməsinlər ki, hicab bağlamaqla bu işləri görmək mümkün deyil. Belə düşünənlər dar düşüncəli insanlardır. Kərbəla qadınları öz həya və hicablarını qorumaqla yanaşı, cəmiyyətdə iştirak edib, öhdələrinə düşən vəzifələri lazımıca yerinə yetirdilər və bunu bir dərs olaraq bütün dünyaya sübut etdilər.***

İslam dininə əsasən hər bir müsəlman qadına özünü naməhrəmdən örtməsi vacibdir. Bir gün bir qadın Həzrət Peyğəmbərin (s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah, bir qadın İslam məclisində hicabı olmadığı halda iştirak edə bilərmi?" Həzrət Peyğəmbər (s) buyurdu: "Xeyr, hicabsız həmin məclisə gedə bilməz. Özünün hicabı varsa, geyinib getsin. Əgər yoxdursa, onu məclisə dəvət edənlər həmin qadın üçün hicab tapıb geyindirsinlər. Ondan sonra həmin məclisdə iştirak etsin."

Qadın xeyir məclislərində hicaba riayət etmək şərtilə iştirak edə bilər. Çünki qadının hicaba riayət etməsi vacib əməllərdəndir. Əsas söhbətimiz Kərbəla xanımlarının öyrətdiyi dərslər barədə olduğundan, hicab barədə geniş danışıb mövzudan kənara çıxmaq istəmirəm. Əgər bu mözuda söhbət etməli olsaq, bəhsimizdən kənarda qalarıq. Buna görə də hicab barədə ayə və hədislərdən keçirəm.

Kərbəla hadisəsindən sonra, məhərrəm ayının 11-ci günü hərəkət etməyə başladılar. İmam Səccad (ə) və İmam Baqirdən (ə) başqa qalanları qadın idi. İmam Baqirin (ə) dörd yaşı var idi. Səfər ayının 1-ci günü Şam şəhərinə yetişdilər. Dəməşqə daxil olarkən Yəzid əmr verdi ki, əsirləri şəhər bəzənib qurtarana qədər qapıda saxlasınlar. Əsirlər üç gün şəhərin darvazasının arxasında qaldıqdan sonra onları şəhərə daxil etdilər. Şəhərə girərkən bir nəfər İmam Hüseynin (ə) qızı Səkinəyə baxıb dedi: "Siz haranın əsirlərisiniz? Xanım Səkinə bibisi Zeynəbin (s.ə) Kufə camaatına verdiyi cavabı həmin şəxsə dedi: Biz Ali-Muhəmməd (s) əsirləriyik."

Səhl ibn Saidi Peyğəmbərin (s) səhabələrindən biri idi. O deyir: "Şəhərin bəzədildiyini görüb bir nəfərdən orada nə baş verdiyini soruşdum. Mənə dedilər: Xarici əsirləri şəhərə gətiriblər. Gəlib yaxından maraqlananda nə baş verdiyini anladım. İmam Səccada (ə) yaxınlaşıb dedim: Ağa, mənə görə nə əmriniz var? İmam (ə) buyurdu: Görürsənmi, bizi nə vəziyyətdə şəhərə gətiriblər. Yaralı başların arxasınca qadınları aparırlar. Sən get onlarla danış, başları əsirlərdən bir az qabaqda aparsınlar. Başları çox yaxın aparanda onlara tamaşaya gələnlər qadınlara da baxırlar. Bir iş gör ki, Peyğəmbərin (s) itrəti camaatın gözlərindən amanda olsunlar." Səhl deyir: "Mən gedib əsirləri gətirənlərlə danışıb dörd min dinara qədər pul xərcləyib İmamın (ə) buyurduğu kimi etdim."

Diqqətlə bu əhvalata nəzər saldıqda görürük ki, İmam Səccad (ə) orada ac-susuz, yorğun olmasına



baxmayaraq, öncə qadınları naməhrəm gözündən uzaqlaşdırmaq niyyətində idi. Buna görə də Səhl ibn Saididən belə bir iş görməyi xahiş etdi.

Əsirləri Kufəyə gətirərkən onlara tamaşa etməyə minlərlə insan toplaşmışdı. Ümmi Gülsüm Kufə camaatını səsləyərək buyurdu: - Ey Kufə camaatı! Allahdan və Onun Rəsulundan (s) utanmırsınız, bir halda ki, Peyğəmbərin (s) Əhli-beytinə (ə) tamaşaya gəlmisiniz?

Tarixdə qeyd olunmuşdur ki, əsirlərin əllərindən hicabı almışdılar. Onların başları açıq idi. Lakin nə dərəcədə açıq olduğu məlum deyil. Xanım Zeynəbin (s.ə) xütbəsində də bu məsələyə işarə olunur. Hər halda əgər hicab onlardan alınmışdısa, məcburi şəkildə almışdılar. Çünki bu, artıq əsirlərin ixtiyarında deyildi. İmamın (ə) başını kəsdikləri kimi, qadınların da hicabını almışdılar. Əgər onlar hicabsız qalmışdılarsa, məcburiyyət qarşısında idilər. Bütün bunlara baxmayaraq, dil ilə camaatı başa salmaqla öz iffətlərini və hicablarını imkan daxilində müdafiə edirdilər. Hər bir halda çıxış yolu tapıb öz iffətlərini qoruyub saxladılar. Bütün bunlar dünya müsəlmanlarına böyük dərs idi.

Şam şəhərinin iki darvazası var idi. Bir darvazanın ağzında izdiham çox, o birində isə az idi. Əsirləri camaatın daha çox yığışdığı darvazadan şəhərə daxil etmək istəyirdilər. Ümmi Gülsüm Şimri çağırıb dedi: Mənim səndən bir tələbim var. Bizi şəhərə o biri darvazadan aparın. Bu darvazanın qarşısında insan izdihamı çoxdur, istəmirik bizim başımızı, üzümüzü kimsə görsün. Şimr öz alçaqlığından əl çəkməyib, onun sözünə qulaq asmadı və əsirləri elə həmin darvazadan şəhərə daxil etdi.

Kərbəla qadınları belə ismətli qadınlar idi. Harada hicabı müdafiə etmək imkan olurdusa, bu işi əsirgəmirdilər. Hətta şəhərə daxil olarkən ac, susuz, yorğun və əsir olduqları halda da Şimrdən iffətlərini saxlamaq üçün imkan daxilində izdihamın az olduğu yerdən keçməyi tələb etdilər. Bütün bu hərəkətlər La ilahə illəllah əhlinə hicab, iffət dərsi öyrədir.

Xanım Zeynəbin (s.ə) Şamda Yəzidin sarayında oxuduğu xütbə həm fəlsəfi, həm siyasi, həm də elmi xütbələrdən idi. Həmin xütbədə Xanım Zeynəb (s.ə) buyurur: - Ey müşrik insanın oğlu. Sənin baban Əbu Süfyan müşrik adam idi. Ölənə qədər Peyğəmbərin (s) qulu olub. Sənin fikirləşdiyin ədalət budurmu ki, öz hərəmxananda saxladığın qadınları pərdə arxasında gizlədib, Peyğəmbərin (s) itrətinə isə belə hörmətsizlik edib başı və üzü açıq əsir gətirmisən? Peyğəmbərin (s) Əhli-beytini (ə) düşmənlərə vermisən ki, şəhərbəşəhər gəzdirsinlər və hər gəlib-gedən başlarına, üzlərinə, boy buxunlarına baxsınlar? Etdiyin əməllərdən utanmırsan?

Xanım Zeynəbə (s.ə) vurulan qamçılar, verilən əzablar və qılınc yaraları hicabının əlindən alınması qədər ağır deyildi. Şimr İmamın (ə) başını kəsmək istəyərkən Zeynəb (s.ə) özünü ora yetirib, qılıncın iti yerindən yapışdı. Qılınc barmaqlarının sümüklərinə qədər işlədi.

Dörd əldə kəmale keşməkeşdə
Bir xəncəri tizi abdidə
Tutmuş iki səmtdən o tiği
Möhkəm iki iztirab didə
Gör kim yapışar yalın tərəfdən
Kim dəstədən ay hesab didə.

O şərafətli xanımlara olunan bütün əzab-əziyyətlər hicabın onlardan alınması qədər ağır gəlmirdi. Kərbəladan çıxarkən qız-gəlinlər şəhidlərin cənazələri ilə vidalaşdılar. Xanım Səkinə İmam Hüseynin (ə) yaralı bədəninin kənarında dayanıb şikayət etməyə başladı. Atacan, bizim

bu açıq başımıza bax. Bizim hicabımızı güclə əlmizdən alıblar. Bu sözləri deyib Həzrət Əbəlfəzlin cənazəsinə sarı dönüb baxırdı. Bu baxışlar onu bildirirdi ki, ey əmi, sən sağ olsaydın, bizim başımızı açmağa heç kəs cürət etməzdi. Səkinə ona dəyən qamçılardan, verilən əzablardan və səhərə qədər ağlamağından bir kəlmə də olsun şikayət etmədi.

Düşmən çadırlara hücum çəkib qarət etməyə başladı. Xanım Zeynəb (s.ə) hər işi əvvəlcədən tədarük görmüşdü. Qız-gəlinlərdən zinət əşyalarını alıb parçalara bükmüşdü. Çadırlara qarət üçün hücum çəkərkən həmin əşyaları düşmənə atırdı ki, gəlib güclə qadınları qarət etməsinlər:

Xanım Zeynəb zəru-zeybi qabaq bükmüşdi dəsmalə,
Dayandı rubərudə, atdı bir- bir qövmi cühhalə.
Buyurdu eyyühəl ərabi vəhşi mərdumi nadan,
Xəyalınız mali dünyadı, mənə möhlət verin əlan.
Hərimi haşimini saxlayım bir guşədə nalan,
Ki qalsın itiyarızda sizin bu xeymələr yeksan.
Çəkin fərşu – zürufu, tirməsin, həm pərdəsin-şalin,
Hüseynin bicəhət incitməyün biçarə ətfalin.
Əsər etməz nəsimi sübhi sadiq səngxarayə,
Həkimin anlamaz mənayi pəndin hər füru mayə.

Qarət edəndən sonra od vurub çadırları yandırdılar. Xanım Rüqəyyənin ətəyini alov aldı. Ətəyi yana-yana o yan, bu yana qaçırdı. Bir nəfər özünü o uşağa yetirib onun ətəyini söndürmək istəyəndə, uşaq qorxdu. Həmin şəxs dedi: Narahat olma, mən ətəyinin odunu söndürmək istəyirəm. Rüqəyyə dedi: Sən kimsən belə? Həmin şəxs dedi: Mən yəhudiyəm. Rüqəyyə dedi: Yaxın gəlmə, özüm söndürərəm. Mən qoymaram naməhrəm əli mənə tərəf uzansın. Əlləri yansa da belə ətəyinin odunu söndürdü.

Əsirləri Şama apararkən gecə vaxtı bir yerdən keçərkən gördülər ki, imam Hüseynin (ə) yaralı başı nizədə irəli getmir. Nə qədər çalışdılar, xeyri olmadı. Dedilər, yəqin bunun bir səbəbi var. İmam Səccaddan (ə) səbəbini soruşduqda Həzrət (ə) buyurdu: "İmam Hüseynin (ə) qızlarından biri yolda dəvənin üstündən yıxılıb və orada atasını səsləyir. Buna görə də Həzrətin (ə) mübarək başı hərəkət etmir." Zəcr adlı bir nəfər atı minib gəldikləri yolla geri qayıdıb qızı axtarmağa başladı. Zəcr deyir: Gecənin qaranlığında uşağın qorxudan bir ağacın altına qısılıb oturduğunu gördüm. Baxıb gördüm həmin uşaq Hüseynin (ə) qızıdır. Ona yaxınlaşıb ata mindirmək istədim. Geri çəkilib dedi: Mən səninlə bir atın üstündə gəlmərəm. Nə qədər qamçı vurdumsa, xeyri olmadı. Axırda mən atı minib sürdüm, o da atın arxasınca qaça-qaça gəldi.

Naməhrəm ilə bir ata minməz Hüseyn qızı,
Əmməm deyibdi, bu əməlin çox günahı var.

Xanım Rüqəyyə karvana çatan kimi gəlib atasının başı ilə üz-üzə dayanıb dedi: "Salam olsun sənə ey Əba Əbdillah. Ata, bu başı yetim qızlara çox görməsin Allah."Qeyd olunan bu nümunələr hicaba riayət, iffət və ləyaqəti qorumağı bizə bir dərs kimi başa salır. Quran ayələri, Peyğəmbərin (s) hədisləri, həyat yoldaşları, qızı Xanım Zəhra (s.ə) bunu bütün müsəlmanlara öyrətməsi öz yerində, Kərbəla hadisəsi də bu dərsi bütün dünya müsəlmanlarına öyrədir.

Seyyid Əli Əkbər Ocaq Nejad





**Həyatda ən böyük haqq Allahın haqqıdır**

# İmam Səccadın (ə) hüquq risaləsi

***Əbu Həmzə Somali deyir: "Bu risaləni həzrət Səccad (ə) öz səhabələrindən biri üçün yazmışdır."***

"Sənin üzərində olan haqların ən böyüyü Allahın haqqıdır. Onun sənin üzərində haqqı budur ki, Ona ibadət edəsən, Ona heç bir şərik qoşmayasan. Əgər ixlas üzündən belə etsən, Allah həm dünya, həm də axirət işlərində sənə kifayət edər.

Nəfsinin (yəni, sənin özünün) sənin üzərində haqqı budur ki, ondan yalnız Allaha itaət yolunda istifadə edəsən.

Dilin haqqı budur ki, onu söyüş söyməkdən qoruyasan, gözəl danışığa adət etdirəsən, faydasız sözlər danışmayasan, onun vasitəsilə camaata ehsan edəsən və onlara qarşı şirindil olasan.

Qulağın haqqı budur ki, onu qeybət və sair mühərrəmat eşitməkdən qoruyasan.

Gözün haqqı budur ki, onu haramdan yumasan və onun vasitəsi ilə ibrətlər alasan.

Əlin haqqı budur ki, onu harama uzatmayasan.

Ayağın haqqı budur ki, onunla harama getməyəsən, çünki, həmin ayaqla Sirat körpüsündə duracaqsan. Muğayat ol ki, səni titrədib, atəşə atmasın.

Qarının haqqı budur ki, onu haram malın qabı etməyəsən və onu tutumundan artıq doldurmayasan.

Cinsiyyət üzvünün haqqı budur ki, onu zinadan qoruyasan və gözlərdən gizli saxlayasan.

Namazın haqqı budur biləsən ki, O, Allah dərgahına varid olmaq deməkdir və namaz halında haqq qarşısında dayanmısan. Bunu dərk edən kimi yaxşı olar ki, namaz halında zəlil, dəyərsiz, rəğbətli və ümidlə qorxu arasında olan, biçarə bir bəndənin əzəmətli sahibi qarşısında dayandığı kimi durasan. Eləcə də layiqdir ki, namazda tamam-kamal vüqar və aramlıqla dayanasan, hüzuri-qəlbə riayət edəsən və namazı bütün həddi-hüdudlarını və şərtlərini layiqincə yerinə yetirəsən.

Həccin haqqı budur biləsən ki, bu, Pərvərdigarın şah sarayıdır. Həcc günahdan qaçmaq və Allaha pənah aparmaq deməkdir. Həcc tövbənin qəbul olunması və vacib vəzifənin yerinə yetirilməsi deməkdir.

Oruc budur biləsən ki, Allahın səni atəşdən qorumaq üçün dilinə, qulağına, göz, qarın və fərcinə atdığı bir pərdədir. Əgər orucu tərk etsən, pərdəni yırtmış hesab edilirsən.

Sədəqənin haqqı budur biləsən ki, o sənin Allaha tapşırdığın və heç bir şahidə ehtiyacı olmayan əmanət və ehtiyatdır. Əgər bunu dərk etsən, gizli sədəqəyə, aşkar sədəqədən daha artıq etibar edəcəksən və eləcə də dərk edəcəksən ki, o, dünyada bəla və xəstəliklərdən, axirətdə isə atəşin qarşısını alır.

Qurbanlığın haqqı budur ki, onu yalnız Allahdan ötrü yerinə yetirəsən. Heç bir məxluqu nəzərdə tutmayasan və Allahın rəhmətindən və Qiyamət günündə nicat tapmaqdan başqa bir hədəfin olmasın.

Sultanın haqqı budur ki, biləsən ki, Allah səni onu yoxlamaq vasitəsi qərar verib. Allahın ona verdiyi qüdrət də onu imtahan etməkdən ötrüdür. Özünü onun qəzəbinə tuş etməyəsən. Əgər belə etsən, özünü həlakətə atmış olarsan və bu halda da onun sənə etdiyi zülmə şərik olmuş olacaqsan.

Müəllimin haqqı odur ki, ona təzim və ehtiram göstərəsən, diqqətlə sözlərinə qulaq asasan, onunla uca səslə danışmayasan, ondan bir söz soruşsalar sən cavab verməyəsən, qarşısında başqası ilə söhbət etməyəsən, bir kəs onu məzəmmət etsə sən onu müdafiə edəsən, eyiblərini örtəsən, gözəl xüsusiyyətlərini izhar edəsən, düşmənləri ilə oturmayasan, dostları ilə düşmənçilik etməyəsən. Əgər belə etsən, Allahın mələkləri şəhadət verərlər ki, həqiqətən sənin elm öyrənməkdə məqsədin Allah razılığını qazanmaqdır.

Tabeçiliyində olduğun şəxsin haqqı budur ki, onun qarşısında müti olasan, sözündən çıxmayasan. Yalnız Allahın qəzəbinə səbəb olacaq işlərdə ona tabe olma. Allaha qarşı günaha səbəb olacaq işlərdə, ümumiyyətlə, heç kəsə tabe olmaq olmaz.

Sənin tabeçiliyində olan kəslərin haqqı budur biləsən ki, onların sənin tabeçiliyin altına düşməsinə səbəb sənin qüdrətin və onların zəifliyidir. Elə isə gərək on-

larla ədalətlə rəftar edəsən, onlardan ötrü mehriban ata olasan, onların nadanlığına göz yumasan, onları cəzalandırmaqda tələsməyəsən və Allahın sənə verdiyi bu qüdrətə görə Ona təşəkkür edəsən.

Sənin elm öyrətdiyin kəsin, tələbənin haqqı budur biləsən ki, elmi sənə Allah verib, elmin xəzinələrini üzünə O açıb və elm öyrətməyi O sənə qismət edib. Əgər onlarla mülayim və xoş rəftar edib üzgözünü turşutmasan, Allah da sənə olan nemətlərini artırar. Əgər, elmini yaymaqda simiclik etsən və elm öyrənmək istəyənlərlə kobud davransan, Allah sənin elmində olan rövnəq və səfanı alar, qəlblərdə olan ehtiram və mövqiyyətini də aradan aparar.

Qadının sənin boynunda olan haqqı budur biləsən ki, Allah onu sənin ülfət tapmağın, aramlıq və rahatlığın vasitəsi qərar verib. Gərək sən bunu Allahın nemətlərindən hesab edəsən və buna görə də onunla xoş keçinib ehtiramını saxlayasan. Hərçənd ki, sənin onun boynunda daha çox haqqın var, lakin sən də gərək, ona qarşı mərhəmətli olasan, onun yeməyini və geyimini verəsən, nadanlıq etsə, buna göz yumasan.

Qulun haqqı budur biləsən ki, o da Allahın məxluqudur. Ata-anası, əti, qanı səndə olduğu kimidir. Sənin ona sahib olmağın bu demək deyil ki, onu yaratmısan. Sən onun bədəninin heç bir üzvünü də xəlq edə bilməzsən. Elə bir gün də gələcək ki, o sənin əlində olmayacaq. Onun ruzisini Allah verir. Səni də məhz Allah onun sahibi edib. O, Allahın sənin əlində olan bir əmanətidir. Allah bu əmanəti tapşırıb ki, ona yaxşılıq etməklə savab qazanasan. Necə ki Allah sənə ehsan edir, sən də onunla xoş rəftar et. Əgər onu bəyənməsən, azad et, Allahın yaratdığına işkəncə verməkdən çəkin. Və la həvlə vəla quvvətə illa billahil əliyyil-əzim.

Ananın sənin boynunda olan haqqı budur bilməlisən ki, ondan başqa heç kəs səni özündə saxlayıb-daşımayıb. O sənə qəlbindən meyvə verib ki, heç kəs bunu etməz. Bütün üzvləri ilə sənin qoruyub saxlamaqdan ötrü çalışıb. Sənə yemək verib, özü ac qalmaqdan, səni geyindirib, özü paltarsız qalmaqdan, sənə su verib, özü susuz qalmaqdan, sənin üzərinə kölgə salıb, özü günəşin hərarəti altında qalmaqdan, yuxusuz qalmaqdan, səni soyuqdan və istidən qorumaqdan əsla qorxmayıb. O bütün bunlara ona görə dözüb ki, təki bir övladı olsun! Əgər Allah sənə kömək edib tövfiq verməsə, ona təşəkkür edib borcundan qurtarmağa qüdrətin çatmaz.

Atanın sənin boynunda olan haqqı budur biləsən ki, o sənin varlığının, mövcud olmağının mənşəyidir. Əgər o olmasaydı, sən də olmazdın. Sənin vücudunda olan xoşagələn hər şeyin kökü atandır. Elə isə Allaha şükr et və bu nemətə görə ona minnətdar ol.

Övladın haqqı budur biləsən ki, o sənin bir hissəndir. Dünyadakı xeyir və şəri sənə mənsubdur. Onun Allahı tanımağı, ədəbli olmağı və tərbiyələnməyindən ötrü məsuliyyət daşıyırsan. Gərək Allaha itaət etməkdə ona kömək edəsən. Onun barəndə əməlin elə bir şəxsə oxşayır ki, o yaxşı iş görsə savabı var və pis iş görsə cəzası var.

Qardaşın haqqı budur bilməlisən ki, o sənin əlin, izzətin və qüvvətindir. Onu günah və zülm vasitəsi etməyəsən. Düşmənə qalib gəlməkdə ona kömək etməlisən. Onunla xeyirxahcasına davran. Əgər Allaha müti olsa, ona arxa-dayaq ol. Əks təqdirdə, Allahı ondan üstün tutmalısan.

Səni Allah yolunda azad edən sahibin haqqı budur bilməlisən ki, o öz malını səndən ötrü sərf edib səni zillətdən, qul olmaq dəhşətindən xilas edib, səni əsirlikdən qurtarıb, qul zəncirlərini ayağından açıb, səni zindandan azad edib, səni öz şəxsi mülkiyyətinə çevirib. Sənə ibadət etmək imkanı verib. Sən də gərək bacardığın və əlində olan hər bir imkanla, hətta canınla da olsa, ona kömək edəsən.

Azad etdiyin qulun haqqı budur bilməlisən ki, Allah-təala onun azad olunmağını Özünə yaxınlıq və atəşdən xilasolma vasitəsi qərar vermişdir. Sən ondan nəğd bəhrə aparırsan: əgər ölsə, qohumu olmadığı halda ondan qalan miras sənə çatır, ikincisi də onu azad etməklə axirətdən bəhrələnirsən ki, bu bəhrə də behiştdən ibarətdir.

Sənə ehsan edən kəsin haqqı budur ki, gərək ona təşəkkür edəsən. Onun sənə etdiyi ehsanı (yaxşılığı) unutmayasan, adını yaxşı tanıtdırasan, ondan ötrü Allaha ürəkdən dua edəsən. Belə etsən, gizlində də, aşkarda da ona minnətdar olmuş olarsan. Eyni zamanda onun sənə etmiş olduğu yaxşılığı zay etməyəsən.

Müəzzinin haqqı budur bilməlisən ki, o, Allahı sənin yadına salır, səni ibadətdən bəhrələnməyə çağırır, sənə ilahi vacibatı yerinə yetirməkdə kömək edir. Elə isə, sən də gərək ona minnətdar olasan.

İmam-caamatın haqqı budur ki, bilməlisən ki, o, Allahla sənin aranda səfir vəzifəsini icra edir. O sənin tərəfindən söz deyir, lakin sən onun tərəfindən söz demirsən. Sən onun üçün dua etmirsən, lakin o səndən ötrü dua edir. Pərvərdigarın qarşısında dayanmaq hövl və vahiməsini o öz öhdəsinə alıb. O özünü sənin, namazını isə sənin namazın qarşısında sipər edib. Buna görə də ona minnətdar olmalısan.

Səninlə oturub-duran, yoldaşlıq edən kəsin haqqı budur ki, gərək onunla yumşaq davranmalısan, onunla adilanə söhbət edəsən. O, razı olmasa, yanından qalxmayasan. Əgər sənin

yanında başqa birisi oturmuş olsa, o səndən icazə almadan yanından dura bilər. Sən gərək onun səhv və xətalarına göz yumasan, yaxşılıqlarını unutmayasan və o gərək səndən yaxşı və xoş sözdən başqa bir şey eşitməsin.

Qonşunun haqqı budur ki, o olmayanda onun heysiyyətini qoruyasan, yanında ona ehtiram göstərəsən, əgər, ona zülm olunsa, onun tərəfini tutasan, eyiblərinin axtarışında olmayasan, eyiblərini örtəsən, əgər, nəsihətə qulaq asandırsa, ona nəsihət edəsən, çətin anlarında onu tək buraxmayasan, səhvlərinə göz yumasan, xətalarını bağışlayasan, onunla ünsiyyəti kəsməyəsən.

Dostun haqqı budur ki, onunla kərəm və insafla rəftar edəsən, necə ki o sənə ehtiram edir, sən də ona ehtiram edəsən. O səninlə necə dostluq edirsə, sən də onunla eləcə dostluq et. Əgər günah etmək fikrinə düşsə, onu gərək bundan daşındırasan, sən ondan ötrü qəzəb yox, rəhmət ol.

Şərikin haqqı budur ki, o olmadığı vaxtlarda onun işlərini öz öhdənə alasan, onun haqlarına riayət edəsən, onun razılığı olmadan bir işə qərar verməyəsən, onunla məşvərət etməmiş bir iş görməyəsən, onun malını hifz edəsən, nə kiçik, nə də böyük işlərdə ona xəyanət etməyəsən, çünki iki şərik nə qədər bir-birinə xəyanət etməyib, Allahın əli onların başları üzərindədir.

Sənin malının haqqı budur ki, onu halal yoldan başqa bir vasitə ilə gətirməyəsən, onu Allaha itaət yolunda sərf edəsən, simiclik etməyəsən. Çünki simiclik özü ilə həsrət, peşmançılıq və ilahi əzab gətirir.

Səndən borcunu istəyən şəxsin haqqı budur ki, əgər imkanın varsa onun borcunu ödəməlisən, verə bilmirsənsə, şirin dillə onun razılığını əldə etməlisən, onun borcunu hələlik qaytara bilməyəcəyini lütf və nəzakətlə bildirməlisən.

Səninlə xoş münasibət yaratmaq istəyənin haqqı budur ki, onu aldatmayasan və ona hiylə və fırıldaq gəlməyəsən, onunla bağlı Allah-təaladan qorxasan.

Səni ittiham edən şəxsin haqqı budur ki, əgər iddiasında haqlıdırsa, sən özün şahid olub iddiasını təsdiqləyəsən, yox, əgər yanlış iddiadadırsa, onunla xoş rəftar edəsən. Onunla yalnız xoşluqla davran və bu məsələdə Allahı qəzəbləndirmə.

Sənin ittiham etdiyin şəxsin haqqı budur ki, əgər iddianda haqlısansa, onunla xoş dillə danışasan, onun haqqını inkar etməyəsən, əgər nahaq iddiadasansa, Allahdan qorx, tövbə et və iddianı geri götür.

Səninlə məşvərət etmək istəyənin haqqı budur ki, əgər münasib rəyin varsa, onu bildirəsən, əgər münasib rəyin yoxdursa, onu məsləhət ala biləcəyi bir adamın yanına göndər.

Sənin məşvərət etmək istədiyin kəsin haqqı budur ki, əgər sənə istədiyinin əksinə rəy versə, onu günahlandırmayasan, əgər sənə münasib bir nəzər bildirsə də Allaha şükür et.

Səndən nəsihət istəyənin haqqı budur ki, ona mehr və məhəbbətlə nəsihət verəsən.

Sənə nəsihət edənin haqqı budur ki, onun qarşısında mülayim olasan, sözlərinə qulaq asasan, əgər sənə dəyərli sözlər desə, Allaha şükür edəsən, əks təqdirdə onunla mərhəmətlə rəftar edəsən, onu günahlandırmayasan, əgər, səhv etdiyini anlasan, onu danlamayasan, əgər, danlağa layiq olacaq sözlər danışsa, bu halda ona güzəştə getmək olmaz, çünki onun artıq heç bir etibarı qalmır.

Səndən böyüyün haqqı budur ki, yaşına görə ona hörmət edəsən, İslamda səndən çox ömür sürdüyünə görə ona ehtiram göstərəsən, onunla söz güləşdirməyəsən, yol gedərkən ondan qabağa düşməyəsən, onu nadan bilməyəsən. Əgər bir dəfə nadanlıq etsə, İslama görə hörmətini saxlayasan.

Səndən kiçiyin haqqı budur ki, ona lütf və məhəbbətlə təlim verəsən, xətalarından keçəsən, pərdəni aradan götürməyəsən, onunla nəzakətlə rəftar edəsən, işlərində ona kömək edəsən.

Səndən borc istəyənin haqqı budur ki, imkan dairəsində ona köməklik göstərəsən.

Borc istədiyin kəsin haqqı budur ki, sənə borc versə qəbul edəsən, ona təşəkkür edib minnətdar olasan. Əgər, verə bilməsə, üzrünü qəbul edəsən.

Səni Allaha xatir sevindirən kəsin haqqı budur ki, əvvəl Allaha təşəkkür edəsən, sonra ona.

Sənə pislik edənin haqqı budur ki, onu əfv edəsən, amma bilsən ki, bağışlamaq onun zərərinədir, ondan intiqam al (ki, bunun vasitəsi ilə ağlı başına gəlsin.) Allah-təala buyurub: "Zülm görərkən intiqam alan şəxs hücuma məruz qalmaz."

Dindaşlarının haqqı budur ki, onların asayişi məqsədini güdəsən, günahkarları ilə mehriban rəftar edəsən, onlara lütf göstərəsən, islaha ehtiyacı olanları islah edəsən, yaxşı əməl sahiblərinə "çox sağ ol" deyəsən, onlara azar-əziyyət yetirməyəsən, özün üçün istədiyin şeyləri onlar üçün də istəyəsən, özün üçün istəmədiyini onlar üçün də istəməyəsən, onların yaşlılarını özünə ata əvəzi, cavanlarını qardaş, qoca qadınlarını anan yerində, uşaqlarını, azyaşlılarını övladların yerində biləsən.

(Xüsusi şərtlərlə İslamın himayəsində olan) zimmi kafirin haqqı budur ki, Allahın onlardan qəbul etdiyini sən də qəbul edəsən və nə qədər ki, Allahla bağladıqları əhd-peymana sadiqdirlər, onlara zülm etməyəsən.



# QURAN VƏ AZADLIQ

Azadlıq sözünün əsasən son əsrlərdə dillərə düşməsinə baxmayaraq insanda azadlıqserərlik duyğusu son əsrlərdə yaranan yeni bir məsələ deyildir. Bu məsələ həmişə insanın diqqətini özünə cəlb etmiş, onun fikrinin dərinliklərində kök salmış və qədim arzularından biri hesab olmuşdur. Insanın digər istəkləri kimi azadlıq istəyi də onun fitrət və yaradılışından qaynaqlanır və onun mənşəyi insanda "iradə"nin olmasıdır. Insan bir sıra həqiqətləri dərk edib müəyyən işlərə iradə edir və bu zaman azad olmaq, özünün bəyəndiyi işləri yerinə yetirmək və bu yolda heç bir maneə görməmək istəyir. Deməli iradə insandan ayrılmadığı üçün azadlıq sevgisi də həmişə onunladır.

Lakin insan ictimai bir varlıq olduğu və fitri olaraq başqa insanlarla əsaslı problemlərin həllində şərik olub öz yaşayışını əməkdaşlıq üzərində qurmaq istədiyi üçün ictimai yaşayışın qanunlarına riayət etməyə, yəni bir sıra qayda-qanunlar təyin edib öz iradəsini bu qanunların çərçivəsində məhdudlaşdırmağa məcburdur. Çünki əgər bütün insanlar tam sərbəst olsalar, onların iradəsi heç bir qanuna tabe olmasa və hər kəs öz istədiyini etsə, qısa bir müddətdə ictimai yaşayış dağılıb aradan gedər. Odur ki, insan öz mütləq azadlığını məhdudlaşdırmağa məcbur olur. Deyilənlərdən məlum olur ki, heç bir cəmiyyətdə mütləq azadlıq ola bilməz və əsasən cəmiyyət ilə mütləq azadlıq bir yerə sığa bilməz. Odur ki, həmişə azadlıqdan söhbət gedərkən nisbi azadlıq nəzərdə tutulur və müxtəlif xalqlar arasında olan fərq də bu nisbi azadlığın əhatə dairəsindədir.

Burada diqqət olunmalı olan məsələ budur ki, yeni qərb sivilizasiyasında deyilən azadlıq ilə Islamda deyilən azadlıq arasında fərq vardır. Yeni sivilizasiyada hədəf maddi ləzzətlərdən maksimum dərəcədə istifadə etmək olduğu üçün insanlar bütünlüklə dini etiqadlardan, eləcə də əxlaq normalarından azaddırlar və öz qoyduqları ictimai qanunları pozmamaq şərtilə ürəkləri istədikləri hər bir işi yerinə yetirə bilərlər. Sözsüz ki, belə azadlıq insanlıq ruhunu və əxlaqi fəzilətləri məhv edib insanı heyanlıq səviyyəsinə sürükləyir və yaradılış sisteminin insan üçün nəzərdə tutduğu təkamül yolundan saxlayır.

İslam dini isə öz təlimlərini ilk növbədə tövhidə, sonra əxlaqi fəzilətlərə əsaslandırdığı və istisnasız olaraq bütün fərdi, ictimai işlər üçün göstərişlər verib onlara hədd qoyduğu üçün qərb sivilizasiyasında deyilən azadlıqla razılaşmır və özü onun üçün başqa bir hədd-hüdud nəzərdə tutmuşdur. Lakin bunun əvəzində insana elə bir azadlıq vermişdir ki, bu azadlıq onun qarşısında geniş bir dünya açmışdır. Bu, "Allahdan başqasına qul olmamaq" azadlığıdır. Bu azadlığın bir cümlədə ifadə olunmasına baxmayaraq diqqət etdikdə aydın olur ki, çox geniş mənaya malikdir və bu günkü sivilizasiya dünyasında olan buxovların bir çoxunu insanların ayağından açır, yəni hər bir xalqı başqa millətlərin hər cür əsarətindən, hər bir ictimai sinfi digər siniflərə qul almaqdan azad edir. Buna görə də güclü və ya zəif

olmasından asılı olmayaraq bütün fərdlərə və cəmiyyətlərə, həmçinin müxtəlif millətlərə eyni dərəcədə azadlıq vermişdir. Bu, Islamın bəşəriyyətə verdiyi ən böyük azadlıqdır. Quran buyurur:"Ey kitab əhli, hamımızın həmfikir olduğumuz vahid mətləbə gəlin. Gəlin Allahdan başqasına pərəstiş etməyək, heç bir şeyi ona şərik qoşmayaq və bir-birimizi allahlığa seçməyək." ("Ali-İmran", 64)

İslam dini hökmlər və göstərişlər baxımından da Allahın halal nemətlərindən istifadə etməkdə mötədil azadlığa yer vermiş, ifrat və təfritdən çəkindirmişdir. Quranda buyurulur: "Yer üzündə olan hər bir şeyi sizin üçün yaratmışdır." ("Bəqərə", 29)

Başqa bir ayədə isə təkcə yerdəki varlıqların yox, hətta göydə olanların da insana xidmətçi olduğu bildirilir: ("Casiyə", 14)

Bütün bu deyilənlər əsasında aydın olur ki, İslamın mütləq şəkildə əqidə azadlığı tərəfdarı olduğunu və hər kəsi istədiyi dini seçməkdə haqlı bildiyini güman edən şəxslər yanılırlar. Islamın bünövrəsi şirki rədd etmək və tövhid olduğu halda necə ola bilər ki, bu din insanları tövhid prinsipinə qarşı çıxmaqda azad qoysun?! Bu açıq-aşkar bir paradoksdur və tamamilə buna bənzəyir ki, insanlar bu günkü dünyada qoyduqları qanunların pozulmasına icazə versinlər. Halbuki bu, həmin qanunların qoyulması ilə heç cür uyğun gəlmir.

Bu nəzəriyyənin tərəfdarları bir sıra ayələri, o cümlədən "Dində məcburiyyət yoxdur. Çünki artıq düz yol batil yoldan seçilib ayrılmışdır." ayəsini əldə əsas tutaraq güman edirlər ki, Quran hər bir əqidəni seçməyi azad etmişdir, halbuki ayə onların dediyi mənanı yox, tamamilə başqa bir şeyi nəzərdə tutur.

Qeyd olunan ayə bizə bu həqiqəti öyrədir ki, İslam dininin haqq olması Quran və əziz peyğəmbərimizin (ə) sözləri sayəsində aydın olduğu üçün insanlara İslam dinini məcburi və könülsüz şəkildə qəbul etdirməyə ehtiyac yoxdur. Həmin ayədə لاَ إِكْرَاهَ فِي الدِّينِ "Dində məcburiyyət yoxdur." cümləsinin ardınca gələn قَد تَّبَيَّنَ الرُّشْدُ مِنَ الْغَيِّ "Çünki artıq düz yol batil yoldan seçilib ayrılmışdır." cümləsi də bu fikri təsdiqləyir.

Bundan əlavə, məcburiyyət yalnız insanın zahiri işlərində və bədən hərəkətlərində təsir qoya bilər, qəlbi etiqadlar isə onun nüfuz dairəsindən xaricdir. Ümumiyyətlə əqidə və etiqad bir sıra idraklar nəticəsində qəlbdə formalaşır və bu idraklar olmadan onun məcburi və könülsüz şəkildə yaranması mümkün deyildir. Əslində "Dində məcburiyyət yoxdur." cümləsi obyektiv reallığa söykənən şəri bir həqiqətdir və irşadi hökmlərdən sayılır və demək istəyir ki, heç kəsi haqq dini qəbul etməyə məcbur etməyin, çünki məcburiyyət yolu ilə öz məqsədinizə çata bilməzsiniz.

Bütün bunlardan əlavə, bu ayə insanları etiqadi məsələlərdə təqliddən uzaq olmağa və məntiqə əsaslanmağa çağırır, çünki məcburi və könülsüz şəkildə qəbul olanan əqidə həmişə təqlidi xarakter daşıyır. Hər halda, ayədə işarə olunan dində məcburiyyət mövzusunun insanların istədikləri əqidəni seçməkdə azad olmaları məsələsi ilə heç bir bağlılığı yoxdur.

**Əllamə Seyid Məhəmmədhüseyn Təbatəbai**



# QURANLA DƏRMAN

## "Yasin" surəsi

1-Əbi Bəsirdən rəvayət olunub ki, Həzrət Sadiq (ə) belə buyurdu: Həqiqətdə hər bir şeyin qəlbi vardır. Quranın qəlbi isə Yasin surəsidir. Hər kəs bu surəni gündüz oxusa, həmin gün şam vaxtına qədər qorunmuş və bəhrə aparmışlardan olar.

Bu surəni gecə yatmazdan qabaq oxuyan kəs qovulmuş şeytanın şərrindən qorunmaq üçün Allah min mələyi göndərər. Əgər o həmin gün vəfat etsə, Allah onu Behiştə daxil edər. Qüsul verilən zaman otuz min mələk onun ətrafında dövrə vurar və ona bağışlanmaq tələb edib, onu istiğfar etməklə qəbrin kənarına qədər müşayiət edərlər. Onu qəbirə qoyanda mələklərin bir dəstəsi onun yanında qalıb, Allaha ibadət edər və onun savabını o şəxsə hədiyyə edərlər. Onun qəbrini göz işlədikcə genişlən-dirərlər, və onu qəbrin sıxıntısından amanda saxlayarlar. Həmişə onun qəbrindən Ənam səmaya qədər nur saçar. Nəhayət Allah onu qəbrindən çıxarar. Allah onu məşhur edəndə (qaldıranda) Mələklər onunla birlikdə olub, onu bədrəqə edər onunla söhbət edib, üzünə təbəssüm edərlər. Axırda onu sirat körpüsndən və mizantərəzidən keçirərlər. Onu elə bir məqama və mənzilətə çatdırarlar ki, Allahın müqərrəb mələklərindən başqa heç bir məxluq nail ola bilməz. O Peyğəmbərlərlə birlikdə orada Allahın yanında dayanarlar. Qəm çəkənlərlə qəmlənməz, qüssə çəkənlərlə qüssələnməz, ağlayanlarla, ağlamaz. O, zaman Allah təbarək taala deyər: Ey mənim bəndəm hər kimə istəyirsən şəfaət et. Çünki hamısının şəfaətini qəbul edəcəyəm. Hacət istə, çünki hər nəyi istəsən sənə verəcəyəm. Nəhayət o öz hacətini Allahdan istəyəcək və qəbul olunacaq, şəfaət etsə, qəbul olunacaq. Onun hesabını başqaları kimi çəkməzlər, orada başqaları kimi saxlanılmayacaq. Zəlil və xar olmuşlar kimi xar olmayacaq. Ondan baş vermiş pis əməllərin və günahların cəzasına giriftar olamayacaq, onu bəraət qazandırıb, azadlığını ona verərlər, sonra Allahın dərgahından başı uca çıxarlar. Bütün camaat təcübblə deyərlər. "Sübhənəllah" bu bəndənin hətta bir günahı belə yoxdur, və onu Həzrət Məhəmməd (s) həmdəmlərindən olacaqdır.

2-Cabir ibn Cəfidən rəvayət olunub ki, imam Baqir (ə) belə buyurdu: Hər kəs ömründə bir dəfə Yasin surəsini oxusa, Allah bu dünyada yaratdıqlarının və o biri dünyadakıların və səmada olan şeylərin hamısının hər birisinin sayı qədər, iki min həsənə onun nameyi əməlində yazacaqdır, və həmin qədər də günahlarından keçəcəkdir. O heç vaxt kasıblıq və ziyan çəkməyib, borclu və evsiz-eşiksiz qalmaz, bədbəxtlik, dəlilik görməz, vasvaslığa, iradəsizliyə, və müxtəlif zərər verici xora xəstəliklərə mübtəla olmaz. Allah-taala ölümün çətinliyini onun üçün asanlaşdırar, və özü onu qəbz ruh edər. O elə bir şəxslərdəndir ki, Allah onun yaxşı yaşamasını öz öhdəsinə almış, ölüm anlarında onun xoşhal olmasına zamin durmuş, axirətdə də onu sevindirəcəyinə zəsanət vermişdir. Sonra Allah göyün və yerin mələklərinə xitab edib buyurar: Mən bu bəndədən razıyam, elə isə onun üçün bağışlanmaq tələb edin.

Übəyy ibn Kəb [Məsumların (ə) buyurduğlarına əsaslanaraq] deyir: Hər kəs Allaha xatir Yasin surəsini oxusa, Allah ona Quranı on iki dəfə oxumuş kəsin əcrini verər. Xəstənin yanında Yasin surəsini oxusa, onun hər bir hərfinə on mələk nazil olar ki, qarşısında cərgə ilə dayanıb onun üçün bağışlanmaq tələb edərlər, və onu qəbz ruh edəndə yanına gələrlər. Onun cənazəsini dəfn etmək üçün hazırlayıb (Qüsl-kəfən edib) ona namaz qılıb dəfn mərsasimində iştirak edərlər. Hər xəstə onu (Yasin surəsini) oxusa, yaxud onun yanında bu surə oxunsa, rizvan (Behiştin xəzinədarı, bir qabda Behiştdən gətirdiyi suyu ona içirdər. O nə qədər xəstə yatırsa, onu içər və doyub vəfat edər. Doyan halda qaldırılar, daha peyğəmbərlərin hovuzlarına




ehtiyacı olmaz, nəhayət Behiştə daxil olub sirab olar.

Əbu Bəkr dən (s) nəql edir ki, Həzrət buyurdu: Yasin surəsi Tovratda "moməh" oxunur. Dedilər; Moməh nədir? Buyurdu: Onun sahibini dünya və axirət xeyri əhatə edər. Bu surə səbəbi nəticəsində o dünyadan bəlasına dözər, və bu surə axirət qorxusu dəf edər. Ona müdafiə və Qaziyə də deyərlər, çünki sahibindən (onu oxuyan) hər cür uzaqlaşdırar. Hər bir hacətini (istəyini) qəbul etdirər. Hər onu oxusa, onun üçün iyirmi Həccin savabı yazılar. Hər kəs onun oxunuşuna qulaq assa, onun üçün min dinar Allah yolunda verən şəxsin savabı yazılar. Bir kəs onu (Yasin surəsini) yazıb onun suyunu içsə, onunla min dərman, min nur, min yəqin, min bərəkət, min rəhmət onun qarnına daxil olar, və hər cür xəstəlik dən (s) nəql edir ki, Həzrət belə buyurdu: Əlbəttə hər bir şeyin qəlbi vardır, Quranın qəlbi isə Yasin surəsidir. Yenədə Ənas İslam Peyğəmbərindən (s) nəql edir ki, Həzrət buyurdu: Bir kəs qəbiristana daxil olsa, və orada Yasin surəsini oxusa, Allah-taala həmin gün onların (qəbiristan əhlinin ) əvbını azaldar, və onu oxuyan üçün oradakı ölülərin sayı qədər həsənat yazılar. Əbu Bəsir imam Sadiqdən (ə) rəvayət edib ki, Həzrət belə buyurdu: Əlbəttə hər bir şeyin qəlbi vardır, və Quranın qəlbi isə Yasin surəsidir. Beləliklə hər kəs bu surəni gündüz oxusa, həmin gün axşama qədər hafizlərdən olar. Hər kəs onu gecə yatmazdan əvvəl oxusa, Allah onu çirkin şeytanın afətlərindən qorumaq üçün min mələyi məmur edər. Əgər yatdığı vaxt vəfat etsə, Allah onu Behiştə daxil edər. Otuz min mələk ona qüsl veriləndə hazır olarlar, onun üçün bağışlanmaq istəyər, və onu qəbrinə qoyub, qəbrində Allaha ibadət edər, və savabını ona verərlər. Qəbri göz işlədikcə genişlənər, sıxıntısından amanda qalar, həmişə onun qəbrindən səmaya kimi nur saçar. Nəhayət Allah onu qəbrindən çıxardar (qaldırar). Necəki o qəbrindən çıxdı Mələklər həmişə onun yanında olub, onu müşayiət edərlər. Onunla söhbət edib, üzünə təbəssüm edər, və onu hər bir xeyrə müədə verərlər.

İmam Sadiq (ə) buyurdu: Allahın Rəsulu (s) üçün Quranda on iki ad qeyd olunub ki, onun beşi bu surətdə yazılıb: Məhəmməd Əhməd-Əbdullah, Yasin-Nun.

İnsanın asan can verməsinə kömək edən amil yeddi şeydən ibarətdir. Onlardan biri Yasin surəsidir.

Bəyənilmiş işlərdən biri də odur ki, Şəban ayının on beşi axşamı üç dəfə mübarək Yasin surəsini oxuyasan, onun birini yaşamaq, birini isə sağlamlıq məqsədilə oxusun, hər kəs bu ayəni özündə saxlasa, heç vaxt birinə möhtac olmayıb zalımın əlində giriftar olmaz.

"Hum və əzvacuhum fizilalin ələl əraiki muttəkiun" (Yasin56) Çahar şənbə (üçüncü gün) günündən başlayıb on beş gün müddətində hər gün 818 dəfə bu ayəni oxusun, muradının hasil olması üçün təsirlidir. "Səlamun qəvlən min rəbbin rəhim." (Yasin-58).

Bu ayəni oxumağı davam etdirmək 1000 Quran xətmi kimidir. "Vəmtazul yəvmə əyyuhəl mucrimun." (Yasin-59).

Fəqirliyi (yoxsulluğu) aradan qaldırmaq üçün hər sübh bu ayəni oxuyun: "Və mən nuəmmirhu nunəkkisihu filxəlqi əfala yəqilun" (Yasin-68).

Vəfat etmiş şəxsin kəfəninə bu ayəni yazsanız, o gor əzabından nicat tapar. "Fəla yəstətiunə təvsiyətən vəla ila əhlihim yərciun. Və nufixə fissuri fəizahum minəl əcdasi ila rəbbihim yənsilun. Qalu ya vəylənə mən bəəsənə min mərqədina haza mavəədər-rəhmanu və sədəqəl mursəlun. İn kanət illa səyhətən vahidətən fəizahum cəmiunlədəynamuhzərun."(Yasin-50-53).

Hər kəs hacət niyyəti ilə aşağıdakı ayəni yeddi dəfə oxusa, hacəti qəbul olunar. "Ləş-şəmsu yənbəği ləha ən tudrikəl qəmərə vəlləlləylu Sabiqin-nəhari və kullun fi fələkin yəsbəhun." (Yasin-40).

Aşağıdakı ayəni üç gecə və hər gecədə otuz dəfə Peyğəmbəri yuxuda görər. "Və xələqna ləhum min mislihi ma yərkəbun" (Yasin-42).

Mal mənal (dükan kimi) dövlət qazanmaq istəyirsə, pəncşənbə (dördüncü) günü iki rükət namaz qılıb sonra Yasin surəsini oxusun, bu əməli üç gün təkrar etsin. Çox təcrübə olunub.

Məhəmməd Rza Kərimi Bəxtiyarinin
"Quranla dərman" kitabından



# DƏSTƏMAZ VƏ QÜSULLA SAĞLAMLIQ



## DƏSTƏMAZ

Dəstəmaz, üzü, iki əli yumaq, başa və ayaqlara məsh çəkməyə deyilir. Müəyyən şəraitdə ibadət sayılır.

İslamda vacib edilən bir çox ibadət və dini ayinlər iki cəhətdən böyük əhəmiyyət daşıyır. Birinci cəhət onun insanı Allaha yaxınlaşdırması, mənəvi yetkinliyi, ikinci cəhət isə ictimai mühitə və ya insanın öz sağlamlığını təmin etməsidir. Namaz, oruc, dəstəmaz, qüsl və s. bu qəbildəndir.

Quranda dəstəmaz haqqında oxuyuruq:

*“Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və dirsəklərlə birlikdə əllərinizi yuyun... Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak, təmiz etmək və sizə olan ne’mətini tamamlamaq (artırmaq) istər ki, bəlkə, şükür edəsiniz!” (Maidə, 6)*

**ELMİ SİRLƏR**

Dəstəmazın elmi və mənəvi faydaları haqqında hədislərdə və bir çox elmi əsərlərdə mühüm məqamlara toxunulmuşdur.

**1. Rəvayətlər.**

İmam Rzadan (ə) nəql olunan bir hədisdə deyilir:

“Dəstəmaz bunun üçündür ki, bəndə Allah qarşısında pak, danışmağa hazır olsun. Mövlasının əmrinə tabe olub çirkinliklərdən, murdarlardan təmizlənsin. Əzginliyi aradan getsin. Yuxusu qaçsın...”.

**2. Şəxsi təmizliyi nizama salmaq.**

Bəzi həkimlər yazırlar:

“Bir çoxlarının fikrincə təmizlik zövqə, fərdin iqtisadi durumuna bağlıdır. Quranda isə müntəzəm surətdə təmizlik işi aparmaq bir dini zərurət olaraq göstərilmişdir”.

**3. Dəstəmazın insan sağlamlığında rolu.**

Bəzi həkimlər yazırlar:

“Əgər dərinin sağlamlığı haqqında son elmi nailiyyətlərə nəzər salsaq, o zaman dəstəmazın əhəmiyyəti anlaşılacaq. Dərinin sağlamlığı ilk növbədə bədənin, xüsusilə açıq yerlərin yuyulmasından, təmiz saxlanılmasından aslıdır. Dərinin davamlı olaraq yuyulması tər vəzilərin tər ifrazını asanlaşdırır”.

Dəstəmazın gigiyenik faydaları haqqında yazırlar:

“Dəstəmaz əllərin çirklənməsindən törəyən bir çox həzm xəstəliklərinin qarşısını alır. Bu xəstəliklərin ən təhlükəlisi yolxucu xəstəliklərdir (vəba, qarın yatalağı, mədə iltihabları, qida məhsullarından zəhərlənmələr və s.). Bundan başqa, qan dövranına və s. müsbət təsir göstərir”.

Alimlərdən biri yazır:

“İslamda göstərilən dəstəmaz eynilə masaj (isveç masajı) xarakterinə malikdir. Çünki bədənə soyuq su dəydikdə, həmin üzv soyuyur. Qan soyuyan üzvə doğru sürətlə hərəkət edir və bədənin itirilən təbii hərəkətini qorumağa çalışır. Qan dövranını sürətləndirir, nəticədə insan gümrah və sağlam olur”.

4. Dəstəmazın hansı su ilə (soyuq, pak və s.) alınması, burunu, ağzı yaxalamaq, dəstəmazdan öncə dişləri yumaq və s. bu kimi məsələlər haqqında hədislərdə maraqlı gigiyenik məqamlara toxunulmuşdur ki, ixtisar məqsədi ilə burada qeyd etmirik.

**YEKUN**

1. Dəstəmaz hökmünün zəruri dini ayin olaraq vacib olunması səmavi dinlərin insanlara təmizliklə yanaşı, daxili nurluluğu, səciyyəvi mənəviyyatı da özündə cəmləşdirən ərməğanıdır.

2. Öncə də qeyd olunduğu kimi əlləri və üzü yumaq insanların gündəlik proqramlarında mövcud olmuş, bəzi dinlər tərəfindən isə dəstəmaz olaraq vacib edilmişdir. Deməli, bunu Quranın elmi möcüzəsi hesab etmək olmaz (Qeyd etmək lazımdır ki, İslamda göstərilən dəstəmaz, digər dinlərdə göstərilən dəstəmazla müəyyən baxımlardan fərqlidir).

3. Dəstəmaz bir dini ibadətdir. Onu sadə masaj və ya yuyunma həddinə düşürmək yolverilməzdir. Doğrudur, onun gigiyenik xüsusiyyətlərinə göz yummaq olmaz. Lakin bu dəstəmaza bir tərəfli yanaşmaya səbəb olmamalıdır.

4. Dəstəmazın elmi sirləri onun vacib olunması səbəblərindən ola bilər. Lakin bu heç də tam səbəb deyil. Burada digər səbəblərin (xüsusilə mənəvi səbəblərin) mövcudluğu da ehtimal olunur.

## QÜSUL

Qüsul İslamda bir ibadət olaraq göstərilmişdir. Öncə də qeyd olunduğu kimi bu növ ibadətlərin iki mühüm cəhəti spesifikdir; ibadət və sağlamlıq. Quranın bir çox ayələrində pak insanlar mədh olunur və Allahın istəklisi kimi göstərilir. Qüsul “təharət” (paklıq) deyə anılır. Quranda bir neçə vəziyyətdə qüsul etməyin zəruri olduğu bildirilir.

Birinci: Cənabətli olduqda (cinsi əlaqə və ya istənilən şəkildə məni xaric olduqda).

*“Ey iman gətirənlər! Namaza durduğunuz zaman... Əgər cünub olmusunuzsa, qüsul edin (bədəninizi başdan ayağa qədər yuyub təmizləyin)... Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak, təmiz etmək və sizə olan ne’mətini tamamla-*

*maq (artırmaq) istər ki, bəlkə, şükür edəsiniz!" (Maidə, 6)*

Yuxarıda qeyd olunan ayə bir daha göstərir ki, ilahi göstərişlər insanların mənafeyinə xidmət edir. Allah bu göstərişlərlə insanların mənəvi və cismani paklığını təmin edir.

İkinci: Heyz (qadınların aybaşı adəti - menstruasiya) olan qadınlar.

*"Səndən heyz (aybaşı) barəsində sual edənlərə söylə: "Heyz əziyyətli bir haldır. Heyz zamanı qadınlardan kənar olun, (heyzdən) təmizlənməyənə qədər onlarla yaxınlıq etməyin, təmizləndikdən sonra isə Allahın sizə əmr etdiyi yerdən (buyurduğu qayda üzrə) onlara yaxınlaşın!" Allah (günahından) tövbə edənləri, (təmiz və) pak olanları sevər!" (Bəqərə, 222)*

Bu haqda növbəti bəhslərdə (heyz haqqında olan qadınlarla cinsi əlaqənin yasaq olunmasının səbəbləri bəhsində) ətraflı söhbət açacağıq.

Qeyd: Əlbəttə, İslamda digər qüsullər də mövcuddur (Buraya Nifas (doğuş qanı görən qadınlar üçün), İstihazə (müəyyən şəraitdə qan görmələr zamanı) vacib, cümə, bayram və s. müstəhəb qüsullər daxildir).

**ELMİ SİRLƏR**

**1 Qüsulün səbəbləri hədislərdə.**

İmam Rza (ə) Məhəmməd ibn Sənanın sualının cavabı olaraq buyurur:

"Cənabət qüsulündən məqsəd təmizlikdir. İnsan qüsul zamanı özünü çirkdən təmizləyir, bədəni paklayır. Çünki məni bütün bədəndən xaric olur. Buna görə də bütün bədəni təmizləmək lazımdır".

Qeyd: Hədisin elmi izahı haqqında növbəti səhifələrdə söhbət açacağıq.

**2. Qüsulün mənəvi rolu.**

Qüsul insanın daxilən nurluluğuna səbəb olur. Onda mənəvi əhval-ruhiyyə yaradır. Ruha paklıq bəxş edir.

**3. Qüsulün gigiyenik faydaları**

Bəzi həkimlər qüsulün gigiyenik faydaları haqqında yazırlar:

"Spermanın orqanizmdən xaric olması (sidik və s. kimi) yalnız bir üzvlə bağlı deyil. O, bütün orqanizmə təsir göstərir. Bütün hüceyrələr sperma xaric olduqda süstləşir.

Alimlərin tədqiqatına görə insan orqanizmində mövcud olan veketativ sinir sistemi – simpatik və parasimpatik olmaqla iki hissəyyə bölünür. Simpatik sinir sisteminin funksiyasi orqanizmin fəalliyətini sürətləndirmək, çoxaltmaq, parasimpatik sinir sisteminin funksiyası isə tam əksinə orqanizmin fəaliyyətini ləngitməkdir. Veketativ sinir sisteminin bu iki hissəsi orqanizmdə tarazlığı qoruyur. Bəzən orqanizmdə baş verən fəaliyyət nəticəsində məlum tarazlıq pozulur. Bu tarazlığı pozan amillərdən biri də orqazm aktıdır. Bu zaman parasimpatik sinir sistemi simpatik sinir sistemini üstələyir və məlum tarazalıq mənfi şəkildə pozulur. Sübuta yetirilmişdir ki, simpatik sinir sistemini işə salan və itirilmiş tarazlığı bərpa edən amillərdən biri də bədənin suya toxunmasıdır. Orqazm zamanı simpatik və parasimpatik sinir sistemlərinin tarazlığı pozulduğu üçün cinsi əlaqədən və ya məni xaric olduqdan sonra su ilə yuyunmaq (qüsul etmək) vacib edilmişdir".

Elm adamlarından biri yazır:

"İnsan bədəninin xarici örtüyündə 2 milyona yaxın məsamə mövcuddur. Dəri bu məsamələr vasitəsilə xarici aləmlə qaz mübadiləsinə girir. Yəni oksigenin orqanizmə daxil olmasını təmin edir (Orqanizmin tənəffüsünün 7%-i bu yolla baş verir). Tər və zəhərli qazlar da bu məsamələrdən xaric olur. Bədəndən xaric olan tərin davamlı buxarlanması nəticəsində qazlı maddələr buxara çevrilir, zəhərli, mineral maddələr isə dərinin üzərində qalır. Bu oturumlar (çöküntülər) məsamələri tutur və parazitlərin inkişafı üçün əlverişli şərait yaradır. Cinsi əlaqə zamanı insan daha çox tərləyir. Nəticədə məsamələrin üzərində daha çox çöküntü oturur (İnsan hər 24 saatda orta hesabla 1 litr tərləyir. Əgər məsamələr bu və ya digər vasitələrlə tutularsa, çox keçmədən ölümlə nəticələnər). Buna görə də şəriətdə cənabət qüsulü vacib edilmişdir ki, bədənin üzərində parazit yuvacıqları məhv edilsin.

Qabaqlar məninin yalnız müəyyən bir üzvdən xaric olduğu zənn olunurdu. Yalnız zaman keçdikcə məninin bütün bədəndən xaric olması isbat olundu".

**4. Qüsulün ictimai rolu.**

Bəzi alimlər həkimlərə istinad edərək yazırlar:

"Bilməliyik ki, (cinsi əlaqədən sonra) bədən tam yuyulmazsa, insanın tündməzac olmasına gətirib çıxarır. Bundan başqa, ünsiyyət, sevgi azalır, onlardan pis iy gəlir, iy bilmə hisləri azalır".

**5. "Məss-meyyit" qüsulünün faydaları.**

Bəzi yazıçılar "məssi-meyyit qüsulü haqqında yazırlar:

"Xəstənin dəri örtüyündə çoxlu miqdarda mikrob olur (təqr. hər santikvadratda 40,000). Bəzi mikroblar xəstə öldükdən sonra güclənərək artır. Bu zaman dəri örtüyü yoluxucu xəstəliklərin yayıcısına çevrilir. İslamda meyit yuyulmazdan öncə çirkin hesab olunur və ona toxunanların xəstəliyə yoluxmamaları üçün qüsul etməyi tövsiyə edilir".

**YEKUN**

Burada bir neçə məqama toxunmağı zəruri hesab edirik.

1. Qüsul ayini ilahi dinlərin insana töhfələrindəndir. Hansı ki, onun mənəvi və cismani sağlamlığına yol açır. İlahi dinlər bu növ məsələlərdə insana düzgün həyat yolunu göstərmişlər. Lakin bunun təbii bu instinktiv kökləri öncədən insanda mövcud olduğu üçün səmavi kitabların elmi möcüzəsi hesab oluna bilməz. Bu, sadəcə insanın təbii əməlinin təsdiqidir.

2. Qüsul namaza giriş üçün bir ibadətdir. Onu sırf gigiyenik tədbir səviyyəsinə endirmək doğru deyil. Təbii ki, onun gigiyenik faydaları da danılmazdır.

3. Bir çox elm adamlarının fikrincə cənabət qüsulünün vacib olmasının səbəbi gigiyenik məsələlərdir. Halbuki cənabət qüsulü özlüyündə müstəhəbdir. Lakin namazın müqəddiməsi olduğu üçün vacib olur. Deməli, gigiyenik səbəbləri bu növ hökmlərin tam səbəbi kimi göstərmək doğru deyil.

4. Qeyd olunan gigiyenik faydalar bədənin adi qaydada yuyulması zamanı da özünü göstərir. Bu bir daha məlum faydaları İslamın əsl məqsədi olmadığını aşkara çıxarır.

Doktor Məhəmmədəli Rzayi
"Quranın elmi ecazkarlığı" kitabından

# SUAL CAVAB



**AYƏTULLAH MƏKARİM ŞİRAZİNİN «NÜMUNƏ» TƏFSİRİ ƏSASINDA DİNİ SUALLARA CAVABLAR**

## İSA ALLAHIN OĞLUDURMU?

***Sual: Amerikada bazar günləri televiziyada katolik kilsələrinin proqramı verilir. Xəstəlik səbəbindən kilsədə iştirak edə bilməyənlər üçün nəzərdə tutulmuş bu proqramda keşişlər belə dua edirlər: "Pərvərdigara, biz sənə iman gətirmişik; İsadan başqa sənə mənsub bir kəs tanımırıq; Biz sənin oğlun İsaya etiqad edirik." Bəli, məsihilərin İsa ilə bağlı etiqadları belədir. Bəs biz müsəlmanlar nə üçün İsanı Allahın oğlu hesab etmirik?***

**Cavab:** Bu sual allahşünaslıq mövzusunda İslam məntiqindən xəbərdar olanlar üçün təəccüblü görünə bilər. Amma qeyri-islami mühitdə, adətən, məsihilərlə təmasda olanlar üçün "Üç Üqnum", yəni ata Allah, oğul Allah, Ruhul-qüds məsələsi sual olaraq qalır. Adətən, ata və oğul Allah haqqında danışılır. Qeyri-islami mühitdə bu mövzu ilə bağlı suallar təbiidir. Suala cavab vermək üçün əvvəlcə müsəlmanların "Allah" dedikdə nə başa düşdüklərini aydınlaşdırmalıyıq. İslam üsulundan xəbərdar olanlar yaxşı bilirlər ki, Allah bütün kamal sifətlərinin mənbəyidir və onda heç bir eyb, möhtaclıq, məhdudiyyət yoxdur. Varlıq aləmindəki bütün mövcudları Allah yaratmışdır və o heç bir mövcuda möhtac deyil.

Aydın məsələdir ki, Allah kimsəyə ehtiyac duymaz, onun zehni və xarici üzvləri olmaz, nə doğular, nə də doğar. Beləcə, gözlə görünməz, zövcə sahibi olmaz, zamanla və məkanla məhdudlaşmaz. Çünki bu sayaq sifətlər Allahın məqamını aşağı salar və Onu öz yaratdığı məxluqlara oxşadar. Məsələn, əgər Allah-təala yaratdığı maddi mövcudlar kimi mürəkkəb tərkibə malik olmuş olsa, Onun varlığı tərkibindəki hissələrə ehtiyaclı olar. Məsələn, su oksigen və hidrogen atomlarından təşkil olunmuşdur. Onun varlığı bu iki ünsürün varlığına ehtiyaclıdır. Oksigen və hidrogen olmadan suyun yaranması qeyri-mümkündür. Allah isə mürəkkəb yox, bəsit varlıqdır. Varlıq aləminin yaradıcısı, aləmlərin rəbbi mürəkkəb ola bilməz.

Demək, məsihilər İsanı Allahın oğlu bilməklə Allahı öz ilahilik məqamından endirirlər, belə bir sifət yaranmışlara xas ola bilər.

Allahın tərkibi olmayan varlıqdan nə isə ayrılıb, insan şəklinə necə düşə bilər?! Axı İsa da başqa insanlar kimi maddi varlıqdır. Necə ola bilər ki, Allah onu Öz oğlu və Özünü onun atası adlandırsın?!

Rütbəli məsihilər İsanın Allahın oğlu olması fikrinin əql və elmlə uyuşmadığını gördükləri üçün məcbur qalaraq, dedikləri sözü, yəni İsanın Allah oğlu olmasını başqa cür yozmağa çalışırlar. Onların uyğun yozumlarına nəzər salaq:

1. İsanın yaradılışı adi qaydada olmadığından, o, dünyaya atasız gəldiyindən, eləcə də, onun həyatı bir çox möcüzələr və qeyri-adi hadisələrlə müşayiət olunduğundan İsanın Allahın zühur yeri, təcəlla aynası hesab etmişlər. Guya bu səbəbə görə Allah onu öz oğlu adlandırmışdır. Bəzən də deyirlər ki, Allah-təala İsanı fövqəladə sevdiyindən onu öz oğlu kimi təqdim etmişdir.

Bu yozuma qarşı iki irad var:

a) "Əhde-cədidin" ayələrində aşkar şəkildə bildirilir: "Zaman tamam olduqda Allah qadından doğulmuş oğlunu göndərdi". Eləcə də, məsihilər ümumi etiqad mənbələrində bildirirlər ki, onlar vahid ata Allaha, mütləq qüdrət sahibinə, görünən və görünməyən bütün şeylərin xaliqinə, İsa məsihə, Allahın oğluna, atadan doğulana, ata zatından yeganə doğulmuşa inanırlar. Onlar deyirlər: "Allah Allahdan, nur nurdan, həqiqi Allah həqiqi Allahdan, atası ilə eyni zatda olan məxluq yox, doğulmuş..." bu iki fikir bir-biri ilə qətiyyən uyuşmur. Çünki əvvəlki baxışa görə, İsa məsih Allahın oğludur. Nur nurdan ayrıldığı kimi, İsa da Allahdan ayrılmış və Məryəmin bətnində qərar tutmuşdur. Sonra isə dünyaya qədəm qoyaraq xalqın hidayəti və səadəti yolunda çalışmışdır.

b) Əgər İsanın Allahın oğlu sayılması üçün atasız yaranışı, həyatının müxtəlif möcüzələrlə müşayiət olunması, bu şəxsdən fövqəladə işlərin baş verməsi kifayət sayılarsa, onda İsadan başqaları da Allahın oğlu sayılmalıdır. Çünki həzrət Adəm ata-anasız dünyaya gəlmiş, İbrahim, Musa, Nuh və bir çox digər Peyğəmbərlərin möcüzələri olmuşdur. Allah oğlu sayılması üçün əsas ola bilərmi?!

2. Başqa bir yozumda "Allah İsanın vücudunda təcəlla etmişdir" deyə onu Allah sayırlar. Guya hərarət özünü suda göstərdiyi kimi, Allah da özünü İsanın vücudunda göstərmişdir. Bu yozumla iradlardan yaxa qurtarmaq olmaz. Belə bir yozum çuxurdan çıxıb, uçuruma yuvarlanmaq

kimidir. Söhbətimizin əvvəlində qeyd etdiyimiz kimi, Allah cism deyil və zaman-məkana sığmır. Zaman və məkan baxımından qeyri-məhdud olan bir varlıq insan bədənində aşkarlana bilərmi?! Axı İsa da başqaları kimi bir insandır və hamı kimi yeyir-içir, yatır, yeriyir...

Axı sonsuz olmayan okean da kasaya yerləşə bilməz. Bəs necə ola bilər ki, qeyri-məhdud olan bir vücud İsa kimi məhdud bir vücuda sığışa?! İsanın Allahın oğlu olması əqli və məntiqi olmamaqla yanaşı, Allahın yeməməsi, yatmamasını təəccüblə qarşılayan avam adamda da suallar doğurur.

## XAÇ QÜSLÜ NƏDİR?

Sual: Xaç qüslü dedikdə nəzərdə nə tutulur və o necə yerinə yetirilir?

**Cavab:** Xaç qüslü məsihiliyin dini ayinlərindən biridir. Onlar iddia edirlər ki, bu ayin Həzrət İsadan qabaq da mövcud olmuşdur. Məsihilərin fikrincə, xaç qüslü verən kəs günahlardan təmizlənir və özünü Allah yolunda xidmətə vəqf edir. Bununla belə, “Qamuse-müqəddəs” kitabının müəllifi yazır ki, həzrət Məsih kimsəyə xaç qüslü verməmişdir.

Xaç qüslü ayininin yerinə yetirilməsi qaydasına münasibətdə məsihilər arasında ixtilaf vardır. Bəzilərinin fikrincə, xaç qüslü verilən şəxs suya batmalıdır. Bəziləri isə bu işin üç dəfə yerinə yetirilməsini zəruri sayırlar. Belə bir fikir də var ki, xaç qüslü günahını keşiş qarşısında etiraf edənlərə aiddir. Ona görə də uşaqlara xaç qüslünün verilməsini düzgün saymırlar. Bəziləri isə uşaqlara xaç qüslü verilməsini, onların xaç suyuna salınmasını vacib bilirlər. Onlar deyirlər ki, uşağa xaç qüslü verərkən suyu onun üstünə səpmək kifayətdir. Suyun uşağın üstünə səpilməsi ruhul-qüds ilə yaxınlığa işarədir. Onlar ata-oğul və ruhul-qüdsün adı ilə bir miqdar su səpilməsini kifayət sayırlar. Deməк, əvvəlcədən məsihi olanların xaç qüslü verməsi onların günahdan təmizlənməsi sayılır. Körpələrin və xristianlığı yenicə qəbul edənlərin xaç qüslü verməsi isə onların məsihi ayinlərini qəbul etməsinə bir işarədir.

Bugünki kilsələrdə xaç qüslü eyni qaydada yerinə yetirilir. Keşiş böyük bir qabı su ilə doldurub, ona bir qədər balzam və duz qatır. Sonra camaatın qarşısında qüsl verəcəyi şəxsə xitab edir: “Məsihiliyin Allahı ata, oğul və ruhul qüdsdən ibarət bildiyinə inan: İsa Allah və Allah oğludur, anası Məryəmin bətnində bəşər şəklinə gəlmişdir; o atasının cövhərindən Allah, anasının bətnində insan olmuşdur; o dara çəkildi və üç gün sonra dirildi (qırx gün xalqın arasında oldu) Səmaya qalxdı və atasının sağ tərəfində oturdu. Qətlə yetirilmiş bu Allah qiyamət günü şəhadət verəcək ki, sən iman gətirdin.”

Keşiş bu sözləri dedikdən sonra qüsl verilən şəxs “bəli” deməli və keşiş dərhal sudan götürüb həmin şəxsin üstünə tökməlidir. Keşiş qüsl verən vaxt deyir ki, mən sənə ata, oğul və ruhul-qüds adı ilə qüsl verirəm. Sonra keşiş onun üzünü qurulayır. Bu vaxt qüsl verilən şəxsin günahları bağışlanır, ya da o rəsmi şəkildə məsihi (xristian) olur.

Yeni doğulmuş körpəyə səkkizinci gün xaç qüslü verilir. Ata və ana öz körpəsini kilsəyə gətirir və keşiş yuxarıda qeyd olunmuş sözlərlə körpəyə müraciət edir. Ata və ana körpənin yerinə “bəli” deyərək, razılıq verirlər.

Təəssübdən uzaq olan hər bir şəxs xaç qüslü ayinini diqqətlə nəzərdən keçirsə, onun bir silsilə xürafatdan ibarət olduğunu görər. Xaç qüslü ilə bağlı bəzi iradlarımızı bildirək:

1. Günah ruhi və əxlaqi bir büdrəmədir. Ruhu paka çıxarmadan, həqiqi tövbə etmədən, əxlaqı tərbiyələndirmədən, səmimi qəlbdən Allaha doğru qayıtmadan günahın təsirləri aradan qalxmır. Balzam yağı və duz qatılmış su ilə yuyunmaqla insanın qəlbi və ruhu təmizlənməz. Əgər bir şəxs günahdan peşiman olub, həqiqi tövbə edə bilərsə, bu xürafi ayinlərə yer qalmaz.

İslam ayinləri insanın öz günahına görə peşimanlığını və tövbəsini onun təmizlənməsi kimi qəbul edir və lazım bilmir ki, günahkar şəxs öz sirrini başqalarına açıqlasın. İnsanın günahının təmizlənməsi üçün keşişə heç bir ehtiyac yoxdur.

2. Üçlü Allaha etiqad aşkar bir şirkdir və bu etiqad nəinki insanı paka çıxarmır, hətta həqiqi tövhiddən uzaqlaşdırır. İnsanın etiqadı bu sayaq mövhumatlara əsaslanarsa, o heç vaxt tərbiyələnib nicat tapa bilməz. Əksinə, belə mövhumatlar insanı doğru yoldan azdırır və onu bədbəxt edir. Məsihilərin bu sayaq küfürlü sözləri günahdan paklanma səbəbi bilməsi insanı heyrətə gətirir.

Amma bu araşdırmalar müqəddəs İslam ayinlərinin realistliyini daha da işıqlandırır. İslam dinini qəbul etmək üçün məsihilikdə olan xürafi mərasimlərdən keçmək lazım gəlmir. Dünyanın istənilən bir nöqtəsində, istənilən bir vaxt Allahın birliyini və həzrət Məhəmmədin (s) Peyğəmbərliyini qəbul edən şəxs həqiqi müsəlman olur. Həmin şəxs hüquqi baxımdan digər müsəlmanlardan fərqlənmir. İslamı qəbul etmək üçün cəmiyyətin gözü qarşısında kiminsə təlqinlərini dinləmək, yanlış sözlərini təsdiq etmək lazım gəlmir.





# "DOSTOYEVSKİ DÜNYASI" VƏ "İSLAM DÜNYASI"

"Dostoyevski dünyası" və "İslam dünyası". Bu iki məhfumun qarşılaşdırılması ilk baxışda çoxları üçün qəribə görünə bilər. Xüsusilə də "Mütləq qurtuluş provaslavlıqdadır" fikri ilə Dostoyevskinin də həmfikir olduğunu hesab edənlər bu iki məhfumu iki təzad kimi dəyərləndirərlər.

Amma böyük yazar və mütəfəkkirin daxili dünyasına baş vurduqda tam bir başqa mənzərə, tam başqa halətlə qarşılaşmış oluruq.

Bəli, dövrünün mütəfəkkiri olan Dostoyevski ölkəsinin bu günü və sabahı üçün narahatçılıq keçirirdi. Rusiyanın gələcək durumu onu çox düşündürürdü. Lakin bununla yanaşı, onun üçün hələ uşaq ikən oxuduğu «Min bir gecə» nağıllarından təsəvvüründə canlandırdığı qədim və zəngin Şərq, islamiyyət, müsəlmanlarla ünsiyyət fövqəl dərəcədə əhəmiyyətli idi.

F.M.Dostoyevskinin Şərqə meylliyi onun mənsub olduğu soydan irəli gəlir və bu da onun yaradıcıllığında öz izini qoymuşdur.

N.P.Çulkovun araşdırmalarına görə, Dostoyevskinin əcdadlarını "Qızıl Orda" tatarları arasında axtarmaq lazımdır. Belə ki, 1389-cu ildə Dostoyevskiyə gedib çatan şaxənin təməlini qoyan Aslan Çələbi Moskva ətrafına köç etmişdir. Bu vaxt Moskva knyazı ona Kremensk obasını hədiyyə etmişdir. Sonrakı illərdə Aslan Çələbidən törəyən qollardan biri İrtış soyadını almışdır. 1506-cı ildə Danila İvanoviç İrtış – Dostoyeva kəndinin bir hissəsinin sahibinə çevrilir və beləliklə, ondan törəyənlər sonradan Dostoyevski soyadı ilə tanınmışlar.

Barəsində söz açdığımız yazar 1821-ci ildə yoxsul təbəqəyə pulsuz xidmət göstərilən bir xəstəxanada dünyaya göz açmışdır. Həyatının ilk illərini qardaşı ilə birgə Moskva xəstəxanasında keçirmişdir. O heç bir vaxt uşaqlığından söz açmamışdır. Dostoyevskinin həyat hekayəsində bu nöqtədə böyük bir boşluq vardır. Amma yaratdığı uşaq obrazlarına diqqətlə baxsaq onun uşaqlığı haqqında müəyyən bir təsəvvürümüz yaranar. Onun Netoçka Nezvanovaya və yaxud da yüzbaşı oğlu İlyuşkaya bənzərli olduğunu onun əsərlərini oxuduqda görə bilərik.

O, hələ 13 yaşında ikən İlahi kitabları oxumağa başlamışdır. 15 yaşında yeniyetmə Dostoyevski islam filosovlarının, Hötenin, Puşkinin kitablarına xüsusi meyl göstərmişdir.

Yaşadığı dövr – Çar Birinci Nikolayın hakimiyyətinə təsadüf edirdi. Elə bir dövr ki, zülm, əziyyət, səfalət bütün Rusiyanı cənginə almışdır. Dostoyevski də digər çağdaşları kimi ölkəsinin insanının əxlaqi çöküntüsünə biganə qala bilməmiş və səsini ucaltmışdır. Elə bu səbəbdən də 1845-ci ildə 23 aprel tarixində Moskvada həbs olunmuşdur. Barəsində ölüm hökmü çıxarılan yazar bu hökümdən canını qurtara bilmişsə də, 10 illik məhbusluq və sürgünlük həyatından qurtula bilməmişdir. Gələcəyin dahi yazarı olacaq şəxs 36 illik yazarlıq həyatının 10 ilini məhbus olaraq keçirmişdir. Belə ki, o, mənfi 40 dərəcə temperaturda Sibir çöllərində işləməyə məhkum olunmuş, daş qırmış, daş daşımış, damğalanmış, qamçılanmış, mənən əzilmiş, təhqirlərə məruz qalmışdır. Amma çəkdiyi bütün bu istirablar onun əzmini qırmamışdır. O, səbr etmiş və yenə də səbr etmişdir. Taleyinə boyun əyib, Tanrıya bağlılığını, onun qulu olduğunu və ilahi mesajın ucalığını anlamışdır Dostoyevski.

O, deyirdi: "İnsan üçün sonsuzluğun gücü olan Tanrı önündə əyilməkdən daha gərəkli bir şey yoxdur. Ömrüm boyunca Allahımdan acı zəncirlərimin yumuşaltmasını istədim. Fəqət O, mənə daha çox acı verməyə davam etdi. Axı mən bu acıların müqabilində Allahımın mənə sonsuz uğurların bəxş edəcəyini haradan bilə bilərdim?". Dostoyevski çəkdiyi istirab

və bəlaları, sıxıntılarını qurtuluşa gedən yol olaraq dəyərləndirmişdir.

O, ömrünün sonuna qədər mübtəla olduğu xəstəlikdən məyus olmayaraq, əksinə bu halı bu cür ifadə etmişdir: "Sizlər, sağlam insanlar xəstə bir insanın tutmaları zamanı hiss etdiyi o həzz duyğusunu heç bir vaxt anlaya bilməzsiniz . Necə ki, Muhəmməd (s) Quranda cənnətə gediləcəyini anlatmaqdadır. Bütün bu sözlərinə görə çılğınlar onu bir yalançı, bir saxtakar adlandırmışlar. Amma bu heç də belə deyildir. Muhəmməd (s) … heç şübhəsiz cənnətdədir. Bu şiddətli həzz anı saatlarca davam edə bilərmi, bilmirəm. Amma inanın mənə bu həyatın bütün sevinclərini dəyişməzdim". (Stefan Tsveyq: «Üç böyük usta»)

Dostoyevskinin bu sözlərindən göründüyü kimi, o da çağdaşı Tolstoy kimi islamiyyətə olan meylini və islam peyğəmbərinə olan rəğbətini gizlətməmişdir. O bu rəğbəti həm öz dili ilə, həm də yazdığı "Cinayət və cəza" romanının baş qəhrəmanı Raskolnikovun dili ilə də bəyan etmişdir: "Ah, mən necə də əlində qılınc, at belində olan peyğəmbəri başa düşürəm".

Sürgündə olduğu illərdə Dostoyevski müsəlmanlarla daha yaxından kontaktda olmağa müvəffəq olmuşdur. "Ölü evdən xatirələr" romanında o, cəza çəkdiyi Omsk vilayətində yerləşən kazarmalarında Əli adlı müsəlmanla münasibətini vurğulayır. O, Əliyə rus dilində oxumağı və yazmağı öyrədir, Əli isə ona İsanın Allahın oğlu deyil, bir peyğəmbər olduğunu və bütün bunların Quranda yazıldığından bəhs edir.

Omsk vilayətindən sonra Dostoyevski məhbusluğunun qalan hissəsini çəkmək üçün Qazaxstana – Semipalatinskə göndərilir. Qazaxstanda olduğu müddətdə o, şərqşünas Çokan Çingizxan oğlu Vəlixanovla dostlaşır. Məhz Vəlixanov Dostoyevskiyə İslam mədəniyyəti barəsində dəyərli bilgilər verir və bu bilgilər "Ölü evdən xatirələr", "Cinayət və cəza" əsərlərində özünü göstərməkdədir.

Dostoyevskinin islamiyyətə çəkən İslam mütəfəkkirləri, onların əsərləri və əlbəttə ki, müqəddəs Qurani-Kərimin cazibəsi olmuşdur. Bunu Dostoyevskinin Parisdə yersiz-yurdsuz, acsusuz qaldığı vaxt Moskvadakı bir yaxınına yazdığı məktubunda əyani olaraq görə bilərik: "Səndən rica edirəm, mənə bir miqdar pul və bir Quran göndərə bilərsənmi? " (Bayram Yılmaz. «Höte və islamiyyət», Dostoyevski bəhsi)

Dostoyevskinin həyatı ilə bağlı ən çox araşdırma aparan Stefan Tsveyq olmuşdur. O, Dostoyevskinin çəkdiklərini Həzrət Eyyubun (ə) acılarına, onun səbrini Hz. Eyyubun səbrinə bənzədərək demişdir: "Dostoyevskinin taleyi qəhrəmanlara yaraşan bir taledir. O, Hz. Eyyub kimi istirab çəkərək tanrının önündə özünü kiçik bilmişdir. Sevdiyi üçün imtahan edildiyinə inandığı Tanrının nəzərini hər zaman üzərində hiss etmişdir. Başqaları rahat bir şəkildə özlərini şəhvətin «həzlər»inə təslim edərkən, taleyi onu ümidin zirvəsinə dırmanmağa məcbur etmişdir. Başqaları sadəcə acı çəkərkən, taleyi onu ən dərin istirabların uçurumuna itələmişdir. Hz. Eyyub kimi xəstəliklərə tutulmuş, əzilmiş, xor görülmüşdür.

Bu çağımızda Dostoyevski son dərəcə böyük bir iztirabın və sevincin günümüzün dünyasında hələ var ola biləcəyini göstərən bir örnəkdir. Dostoyevski bu güclü iradəni hiss etmişdir, heç bir zaman taleyinə üsyan etməmişdir."

**Dostoyevskinin islamiyyətə çəkən İslam mütəfəkkirləri, onların əsərləri və əlbəttə ki, müqəddəs Qurani-Kərimin cazibəsi olmuşdur.**

Uzun sürən məhbus həyatının ağırlığını üstündən atmaq üçün Dostoyevski 41 yaşında Avropa ölkələrinə səyahətə çıxmışdır. İstanbul, Berlin, Paris, London, Cenevrə, Vyananı bir-bir gəzmişdir. Rusiyaya geri dönərkən Avropanın məzarlıqdan başqa bir şey olmadığını söyləyərək, xatirələrinə aşağıdakıları yazmışdır: "Bəlkə də dəyərli məzarların olduğu, amma pis qoxulu bir çürümənin 4 bir yana yayıldığı bir məzarlıqdır Avropa. Fransızlar- özlərini bəyənmiş gülünc yaradılışlar, Almanlar- bayağı günahlardan meydana gəlmiş bir millət, İngilislər – rasionalizmin dəzgahları, yəhudilər pis – qoxulu, özlərini bəyənmiş insanlar, Katoliklər – İsa ilə alay edən – şeytani bir doktrina, Protestantlıq- rasionalist bir fitnə, Papa- başına papalıq tacını keçirmiş, həqiqətləri fərq etməyən bir şeytan, Avropa şəhərləri - o böyük əxlaqsızın – Babilin bir tayı. Bildiklərimiz boş bir aldanış.

Demokratiya- kövşək beyinlərin məhsulu. Humanizm – həqiqi bir insan qətliamı".

(«Ruh və maddə». 5.1959)

"Bir yazarın xatirə dəftəri", "Cinlər, Dəliqanlı", "Qumarbaz", "Əzilənlər", "Bəyaz gecələr", "Yoxsul insanlar", "Namuslu oğru", "Ölü edən xatirələr", "Cinayət və cəza" və s. əsərlərin müəllifi dahi Dostoyevskinin 1881-ci ildə - dünyaya gözlərini əbədi yumarkən son sözləri İlahi kitablardan oxuduğu " Nəzərini əsirgəmə" kəlmələri olmuşdur....

Aygün Güney (Deyerler.org)

# Halallıq

Bir gün süd satmaqla məşğul olan bir adam gəmi ilə səyahətə çıxır…

Özü ilə götürdüyü kisədə uzun müddət topladığı qızıllar olur… O, göyərtədə sakit bir yerə çəkilib dönə-dönə qızıllarını saymağa başlayır. Bu arada onunla bir sırada oturan meymun dirəkdən tullanıb qızıl kisəsini götürür və dərhal (təkrar) dirəyin başına dırmaşır…

Süd satan qışqırmağa başlayır… Camaat göyərtəyə toplaşır…

Gəminin məsul işçiləri meymuna nə qədər xoşluqlar nümayiş etdirsələr də, bütün cəhdlər nəticəsiz qalır…

Bir nəfər dirəyə dırmaşmaq istədi… Lakin meymun əlindəki qızıl kisəsini dənizə doğru sallamağa başlayan kimi: ”Aman, kisəni dənizə atmasın” – deyərək , ondan da vaz keçdilər. Meymuna ən sevdiyi yeməkləri göstərsələr də, xeyri olmurdu…

Bütün gəmi sakinlərinin gözü meymunda idi, maraqla müşahidə edirdilər… Elə bu əsnada hamının təəccübünə səbəb olan bir hadisə baş verdi. Meymun kisənin ağzını açdı və bir qızıl çıxarıb dənizə atdı…

İkinci qızılı çıxarıb göyərtəyə atdı… Süd satan qızılı dərhal götürdü amma təbii ki, gözlərini yuxarıdan ayırmadı… Meymun üçüncü qızılı dənizə, dördüncünü yenə də göyərtəyə atdı… Və beləcə davam etdi. Bir qızıl dənizə, o biri göyərtəyə…

Bu vəziyyəti görənlər: ”Meymunu vuraq, qızılları qurtaraq” dedilər. Lakin südçü: “Madam ki, qızılların yarısını gəmiyə atacaq, mən digər yarısını itirməyə razıyam…”

İnsanlar süd satanın belə bir qənaətə gəlməsinə əhəmiyyət vermədiklərinə görə, səbəbini də soruşmadılar. Südçü məsələni belə açıqladı: ”Bildiyiniz kimi mən bu qızılları süd sataraq qazanmışam. Ancaq satdığım südə yarı-yarıya su qatıb satmışam. İndi edənə deyil, etdirənə baxıram və edilənin məqsədə uyğun olduğunu görürəm… Sudan qazandığımı suya atır, süddən qazandığımı mənə…”

# Namaz qılmayan şəxsə şeytanın cavabı

Keçmiş zamanlarda bir nəfər Ərəbistan çöllərində təkbaşına uzaq bir səfərə çıxıbmış. Şeytan onu yolundan azdırmaq üçün təğyiri-libas olub insan qiyafəsində onun qarşısına çıxır və deyir:

- Salam, ey dost. Görürəm, təkbaşına harasa səfər edirsən. İstəyirsənsə, sənə yol-yoldaşı olaram. Mənim də yolum sən getdiyin tərəfədir.

Həmin şəxs çox sevinir və şeytanın təklifini qəbul edir. Bu minvalla iki yoldaşı uzun-uzadı yollarına davam edirlər. Nəhayət qaş qaralır, axşam düşür. Birdən şeytan yoldaşına deyir:

- Mən səninlə dostluq etmək istəmirəm!

Adam bunun səbəbini soruşduqda Şeytan dillənir:

- Səhərdən səni müşahidə edirəm. Səni bir dəfə də olsun namaz qılan görmədim. Mən insan qiyafəsinə girmiş şeytanam. Səni yolundan azdırmaq üçün belə etdim. Baxdım ki, səni azdırmağa ehtiyac yoxmuş. Mən Allaha yalnız bir dəfə səcdə etməyib Ona asi oldum. Bu əməlimə görə də Allah məni qiyamətə qədər lənətlədi. Sən isə gündə beş dəfə Allaha səcdə etməyə tənbəllik edirsən. Ona görə də səninlə olmağımla bir daha Allahın lənətinə düçar olmaqdan qorxuram və səninlə dostluq etməkdən imtina edirəm. Sənin vəziyyətin mənimkindən betərmişki!

# Şeytan

Yaşlı qadın olduqca Allaha bağlı bir adam idi. Hər səhər qapısının ağzına çıxar və uca səslə: “Allahım, bizə verdiyin hər şey üçün sənə şükürlər olsun!” – deyə dua edərdi. Hər dəfə də yan qonşusunun səsi eşidilər, qonşusu səsi çıxdıqca: “Allah yoxdur, Allah yoxdur!” – deyə fəryad qopardı. Yaşlı qadın bundan nə qədər incisə də, sözündən dönməzdi. Ertəsi gün yenə qapısının ağzına çıxar, dua edər, sonra evinə qayıdardı. Qonşusu da inad olsun deyə var gücü ilə, “Allah yoxdur, Allah yoxdur!” – deyib təsəlli tapmağa çalışardı.

Bir axşam qonşusu yaşlı qadına “tələ qurmağı” qərara aldı. Dükana gedib meyvə, tərəvəz, çörək aldı. Doldurduğu torbaları yaşlı qadının qapısının ağzına qoydu. Ertəsi gün yaşlı qadın qapını açıb torbaları gördü. Əvvəlcə təəccübləndi, sonra əllərini Allaha açıb sevinclə, “Sənə şükürlər olsun, Allahım. Göndərdiyin bu nemətlər üçün sənə şükürlər olsun!” – deyə dua etdi. Bu vaxt ağacın arxasından ona tamaşa edən qonşusu səsləndi: “Allah yoxdur, qadın, Allah yoxdur! O gördüyün şeyləri də sənə mən aldım!”. Yaşlı qadın heç halını pozmadı və bu ibrətli sözləri dedi: “Uca Allahım! Sənə nə qədər şükür etsəm, yenə azdır. Həm bu nemətləri mənə göndərmisən, həm də xərcini şeytana ödətmisən”...

# Alim və tələbənin maraqlı söhbəti

Günlərin birində alim tələbəsindən soruşur: Nə vaxtdan bəri mənim tələbəmsən? Tələbə: Düz otuz üç ildir ki, sizin tələbənizəm. Alim: Bu müddət ərzində məndən nə öyrənmisən? Tələbə: Bu illər ərzində sizin sayənizdə səkkiz məsələdən agah olmuşam. Alim: İnna lillahi və inna ileyhi raciuun, ömrümü sənə həsr etmişəm, sən isə yalnız səkkiz məsələ öyrənmisən? Tələbə: Ustadım, yalan danışmağı sevmirəm, inanın ki, yalnız səkkiz məsələdən başqa sizdən heçnə öyrənməmişəm. Alim: Yaxşı, danış görüm nədir bu səkkiz məsələ? Tələbə: 1.Ətrafıma baxdım və gördüm ki, hərə bir şeyə aşiqdir, lakin heç kəs aşiq olduğu şeyi qəbrə apara bilmir. Buna görə də xeyir işlərlə məşğul olmağı sevdim ki, onları qəbrə də apara bilim. 2.Allahın Qurani-Kərimdə buyurduğu: "Amma kim (qiyamət günü) Rəbbinin hüzurunda durmaqdan qorxmuş və nəfsinə istəyini (şəhvəti) qadağan etmişsə, Həqiqətən, onun yurdu Cənnətdir!" (79/40-41) ayəsinə nəzər saldım. Qeyd olunanlardan ibrət götürdüm və Allah qorxusuna nail olmaq üçün əlimdən gələni əsirgəmədim, nəfsimlə mübarizə apardım. 3.Ətrafıma baxdım və gördüm ki, hər kəs sahib olduğu qiymətli əşyasını qoruyur ki, itməsin, xarab olmasın. Allahın Qurani-Kərimdə buyurduğu: "Sizdə olan (dünya malı) tükənər, Allah dərgahında olan (axirət nemətləri) isə əbədidir" (16/96) ayəsini oxuduqdan sonra isə əlimə düşən hər qiymətli əşyanı Allah üçün sərf etməklə onun əbədi qalmasına nail olmağa çalışdım. 4.Ətrafımda kiminin malı-mülki ilə, kiminin də hörməti, nüfuzu və yaxut da əsli-nəcabəti ilə öyündüyünü gördüm. Allahın Qurani-Kərimdə buyurduğu "Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir)" (49/13) ayə ilə rastlaşdıqdan sonra isə təqva əhlindən olmağa çalışdım ki, Allah yanında hörmətim olsun. 5.İnsanların bir-birinə lakə yaxdığını, bir-birini lənətlədiyini gördüm. Bütün bunlar paxıllıqdan irəli gəlir. Allahın "Ya Rəsulum!) Məgər sənin Rəbbinin mərhəmətini (peyğəmbərliyini) onlarmı paylaşdırırlar?! Dünyada onların dolanacaqlarını (keçinəcəklərini) öz aralarında Biz bölüşdürdük. Bir-birlərinə iş gördürsünlər deyə, bəzilərinin dərəcələrini digərlərindən üstün tutduq. Sənin Rəbbinin mərhəməti onların yığdıqlarından (dünya malından) daha yaxşıdır!"(43/32) ayəsinə nəzər saldıqdan sonra isə paxıllıqdan uzaq durdum və başa düşdüm ki, Allahın qisməti deyilən bir şey var və bütün naliyyətlər Allahın qismətindən aslıdır. 6.Ətrafımdakıların bir-birinə qarşı düşmənçilik etdiklərini, bir-birləri ilə savaşdıqlarını, hətda bir-birlərini öldürdüklərini gördüm. Allahın Qurani-Kərimdə "Həqiqətən, Şeytan sizin düşməninizdir, onu (özünüzə) düşmən tutun. O özünə uyanları cəhənnəm əhli olmağa çağırır."(35/6) buyurduğunu oxuduqdan sonra insanlarla ədavət aparmaqdan əl çəkdim və yalnız şeytanla düşmən oldum. 7.İnsanların ruzi əldə etmək məqsədi ilə özlərini bütün vasitələrə, eləcə də harama əl atmağa məcbur etdiklərini gördüm. Allahın Qurani-Kərimdə buyurduğu "Yerdə gəzən elə bir heyvan, qanadları (iki qanadı) ilə uçan elə bir quş yoxdur ki, sizin kimi ümmətlər olmasın. (Onlar da sizin kimi bir zümrədir. Allah onlara da ruzi vermiş, əcəllərini əvvəlcədən müəyyənləşdirmişdir. Onlar da öz qabiliyyətlərinə görə Allahın vəhdaniyyətini mədh edib, şəninə tərif deyirlər). Biz Kitabda (Quranda) heç bir şeyi nəzərdən qaçırmadıq (əskiltmədik). Sonra onlar (bütün canlılar, bütün məxluqat) Rəbbinin hüzuruna cəm ediləcəkdir."(6/38) ayəsini oxuduqdan sonra isə başa düşdüm ki, mən də bu zümrələrdən birinə mənsubam. Bundan sonra mənim olanla kifayətləndim, mənim olmayanın isə ardınca baxmadım. 8.Gördüm ki, insanlar özləri kimi yaratılmış müxtəlif varlıqlara arxalanırlar. Kimi mal-dövlətinə, kimi səhhətinə və s. Allahın Qurani-Kərimdə buyurduğu "Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər."(65/3) ayəsini oxuduqdan sonra isə yaradılmışlara təvəkkül etməkdənsə Yaradan Allaha təvəkkül etməyin ən doğru olduğunu başa düşdüm. Tələbəsini diqqətlə dinləyən alim, "bərəkəllah" deməklə onun otuz üç ilinin boşa getmədiyini bildirir.

# CƏMKƏRAN MƏSCİDİ



***Cəmkəran məscidinin tikilməsinə verilən fərmanın tarixi 293-cü hicri qəməri ili (1129-cu il) ramazanın 17-nə təsadüf edir.***
***Şeyx Səduqun müasiri olan "Qum tarixi" kitabının müəllifi Həsən ibn Muhəmməd ibn Həsən Qumi həzrət Məhdi Sahib əz-Zamanın (ə) göstərişi ilə Cəmkəran məscidinin inşasını Şeyx Səduqun "Munis ül-həzin fi-mərifəti-l-həqq əl-yəqin" adlı əsərlərindən belə nəql edir:***
***Həsən ibn Müslə Cəmkərani deyir: "293-cü il (h.q) ramazan ayının 17-də, çərşənbə axşamı öz evimdə yatmışdım. Gecə yarısı idi. Birdən bir qrup evimə gəldilər və məni yuxudan oyatdılar və dedilər: Qalx və həzrət Məhdi Sahib əz-Zamanın (ə) əmrini yerinə yetir ki, səni tələb edir."***

Həsən ibn Müslə deyir: "Qalxdım və hazırlaşdım və yola düşdüm. Evimin qapısına yaxınlaşanda böyüklərdən bir qrupunu gördüm. Salam verdim. Salamımın cavabını verdilər, xoşgəldin dedilər və məni indi Cəmkəran məscidinin yerləşdiyi yerə apardılar. Baxdım, gördüm ki, orada, üzərinə gözəl bir xalça salınmış və yaxşı balışlar qoyulmuş bir taxt qoyulmuşdu. Təqribən otuz yaşlı bir cavan taxtın üstündə balışlara söykənmiş, əlindəki kitabı onun üçün oxuyan bir qoca da onun yanında əyləşmişdir. Bəzilərinin libası ağ, digərlərinin libası yaşıl olan altmış nəfərdən çox adam həmən cavanın ətrafında namaz qılırdılar. Həzrət Xızr (ə) olan həmən qoca məni taxtın üstündə oturtdu və həzrət imam Məhdi (ə) məni öz adım ilə çağırdı və buyurdu: " Get, Həsən ibn Müslümə de ki, sən neçə ildir bu torpağı abadlaşdırırsan və biz dağıdırıq. Beş ildir əkinçilik edirsən, bu il yenidən əkinçiliyə başlamısan. Bu torpaqdan qazandığın bütün xeyri qaytarmalısan ki, həmən yerdə (əkinçilikdən alınan gəlirlə) məscid tiksinlər. Həsən ibn Müslümə de ki, bura şərif bir torpaqdır. Allah-Təala bu məkanı digər yerlərdən ayırıb dəyərləndirmişdir. Sən oranı tutub öz torpağına birləşdirmisən. Allah iki cavan oğlunu səndən aldı, hələ də ayılmadın. Əgər bu işdən uzaqlaşmasan, Allah sənin güman edə biləcəyin qədər bəla göndərər."

Həsən ibn Müslə ərz etdi: "Ey mənim mövlam! Bir əlamət və ya nişanəni mənim ixtiyarıma verməlisən. Çünki adamlar mənim sözümü əlamət və nişanəsiz qəbul etməzlər." İmam Məhdi (ə) buyurdu: "Seyyid Əbülhəsənin yanına get və ona de ki, qalxsın və gəlsin və o kişi (Həsən ibn Müslimi) gətirsin, neçə illik mənfəəti ondan alsın və başqalarına versin ki, məscid binasının tikintisinə sərf etsinlər. Qalan pulları mülkümüz olan Ərdəhalda yerləşən Rəhəqdən gətirsin və məscidin inşasını bitirsin. Rəhəqin yarısını bu məscid üçün vəqf etdik ki, illik gəlirini əldə etsin və məscidin tikilişinə sərf olunsun.

Adamlara de! Bu yeri sevsinlər və onu əziz tutsunlar və orada dörd rəkət namaz qılsınlar. İki rəkəti məscidin mübarəkliyi, qalan iki rəkəti imam Sahib əz-Zaman (ə) üçün qılsınlar. Məscid üçün qılınan namazın hər rəkətində bir dəfə əl-Həmd, yeddi dəfə

قل هوالله احد

yeddi dəfə rüku və sücudu oxusunlar. İmam

Zamanın (ə) namazında Həmd surəsinin

إِيَّاكَ نَعْبُدُ وإِيَّاكَ نَسْتَعِينُ

ayəsinə çatanda onu yüz dəfə oxusunlar, ikinci rəkətdə də həmən yolla yerinə yetirsinlər, rüku və sücudun təsbihini hər iki rəkətdə yeddi dəfə oxusunlar. Namazdan sonra bir dəfə təhlil (لا اله الا الله) desinlər. Sonra Fatime-yi Zəhranın (ə) təsbihini desinlər, daha sonra başlarını səcdəyə qoyub yüz dəfə peyğəmbər və ailəsinə salavat göndərsinlər."

فمن صلاهما فكانما صلي في البيت العتيق

"Kim bu iki rəkəti (ya bu iki namazı) qılsa, sanki onu Kəbə evində qılmışdır."

Həsən ibn Müslə deyir: "Öz ürəyimdə dedim: "Sən buranı adi yer bilirsən, bura Sahib əz-Zamanın (ə) məscididir." Sonra o həzrət mənə işarə etdi ki, get. Bir qədər yol getmişdim ki, yenidən məni səslədi və buyurdu: "Cəfər Kaşaninin (çoban) sürüsündə bir keçi var ki, onu almalısan. Əgər adamlar pulunu versələr, onların pulu ilə al, əgər verməsələr, pulunu özün ödə. Sabah axşam (yəni çərşənbə axşamı) o keçini gətir və bu yerdə (məscidin kənarında) başını kəs. O keçininin ətini ramazan ayının 18-i ağır xəstəliyi olan xəstələr arasında bölüşdür ki, Allah-Təala hamısına şəfa versin. O keçi ala-buladır, çoxlü tükləri vardır, bir tərəfində hər biri dirhəm ölçüsündə yeddi ağ-qara nişanı, digər tərəfində dörd nişanı vardır."

Həsən ibn Müslə deyir, hərəkət etdim. Bir daha həzrət Məhdi (ə) məni səslədi və buyurdu: "Yetmiş (ya yeddi) gün burada sakin ol."

Həsən ibn Müslə deyir: "Evimə qayıtdım və bütün gecəni səhərə qədər fikirlə keçirtdim. Namazdan sonra Əli ibn Münzərin yanına getdim, gecənin hadisəsini onun üçün danışdım. Sonra onunla həmən məscidin yerinə getdik. O dedi: " Allaha and olsun ki, imamın (ə) buyurduğu nişanə burada qoyulmuşdur." Baxdıq gördük ki, məscidin hüdudları mıxlar və zəncirlərlə müəyyən olunmuşdur.

Sonra Əli ibn Münzərlə Seyyid Əbülhəsənin yanına getdik. Evinə çatanda xidmətçiləri dedilər: "Siz Cəmkərandan gəlirsiniz?" Dedik: "Bəli." Dedilər: "Seyyid Əbülhəsən dan yeri söküləndən sizi gözləyir."

Həsən ibn Müslə deyir: "Seyyid Əbülhəsənin evinə daxil oldum və salam verdim. Məni xoşüzlə qarşıladı və yaxşı bir yerdə oturtdu, bir söz deməmişdim ki, o, sözə başladı və belə dedi: Ey Həsən ibn Müslə! Mən yatmışdım. Yuxu aləmində bir şəxs mənə dedi: Səhər Həsən ibn Müslə adlı bir şəxs Cəmkərandan yanına gələcək. Onun dediyinə inan və sözlərini təsdiq et ki, sözü bizim sözümüzdür, əsla sözünü rədd etmə. Yuxudan oyanıb bu saata qədər səni gözləyirəm."

Həsən ibn Müslə macəranı aydın şəkildə Seyyid Əbülhəsənə danışdı. Seyyid Əbülhəsən Rizayi göstəriş verdi. Atları cilovlayıb süvar oldular və Cəmkərana tərəf yola düşdülər. Cəmkəranın yaxınlığında çoban Cəfəri gördülər ki, sürüsü yolun kənarında otluqdadır. Həsən ibn Müslə sürünün ortasına getdi, imam (ə) buyurduğu o keçini gördü ki, sürünün arxasından ona tərəf qaçdı.

Həsən o keçini tutdu və pulunu ödəmək istədi, çoban Cəfər dedi: "Allaha and olsun ki, bu keçini mən indiyə qədər görməmişəm." Nə qədər etdim, pulunu götürmədi. Sonra o keçini təyin olunan yerə gətirdilər və orada başını kəsdilər.

Seyyid Əbülhəsən məscidin ətrafındakı mıx və çubuqları Quma gətirib evində saxladı. Ağır xəstəliyi olan xəstələr gəlib özlərini o zəncirlərə sürtürdülər və şəfa tapırdılar.

Qumda yaşayan Seyyid Əbülhəsən vəfat edəndən sonra övladı bərk xəstələndi, otağa daxil oldu, sandıqların qapağını açdı ki, özünü mıxlara və zəncirlərə sürtsün ki, şəfa tapsın, onları tapmadı. (Biharul-Ənvar, c.53, səh.230-233)



# Şəhid Sani

الشهيد الثاني

## Ölümsüz qəhrəmanlar

***Şəhid Saniyə niyə «Şəhid sani» deyilməsinin səbəbini o özü dostlarından birinə belə nəql edir ki: «Bir gün yatmışdım, yuxuda məni İmam Zamanın (ə.f) da qatıldığı bir məclisə dəvət etdiklərini gördüm. Məclisə təbii ki, böyük maraqla qatıldım. Məclisə daxil olduğum zaman məclisin yüxarı başında İmamın əyləşdiyini gördüm. Salam verdim. İmam salamımı alıb məni yuxarı başa dəvət etdi. Mən bir az sıxılınca İmam «Şəhid Sani, gəl Şəhid əvvəllin yanında əyləş» deyə buyurdu. O günə qədər mən şəhid olacağımı düşünmürdüm. Amma o andan anladım ki, mən şəhid olacaq ikinci, yəni sani olan şəxsəm.»***

O, Livan tarixinə, İslam dünyasına öz qanı ilə ölümsüzlük şüarını yazan mətanətli alimlərdən idi. Həyatını yaşadığı, hədəf bildiyini din uğrunda mübarizəyə sərf edərkən ali şəhadəti ilə də bir daha ölməzliyin zirvəsini fəth edib «Həqiqətən də şəhidlər ölmürlər, onlar Alllah yanında ruzi yeyirlər» ayəsinin nümunəsinə çevrildi.

1506-cı il, mart ayının 8-i Livanın ruhani ailəsidə, Nurəddin Əlinin evində körpə bir uşaq dünyaya göz açdı. Valideynləri onu İmam Zeynəl-abidinin (ə) şəninə Zeynəl-abidin adını verdilər. Sonralar Şəhid Sani kimi tanınacaq bu şəxsin nəsli tarixdə çox tanınan böyük şəxslər yetişdirəcək ali bir ailə başlanğıcı oldu. Şəcərəsində adları şərəflə çəkilən Əllamə Əbu Mənsur Cəmaləddin Həsən, «Mədarik» kitabının müəllifi Şeyx Muhəmməd Əli Amuli, müasir Livan tarxinin yazarı, bu günə taleyi məlum olmayan İmam Musa Sədr, İslam dünyasının həmişəyaşar alimi Ayətullah Muhəmməd Baqir Sədr, onun dəyərli bacısı Bintul-huda Sədr və sair adını qeyd etmədiyimiz dəyərli Əhli-beyt (ə) yolunun təbliğçiləri məhz Şəhid Saninin, Ayətullah Zeynəl-abidinin nəslindəndir.

İlk təhsil dövrünü atası Nurəddin Əli tərəfindən alan Ayətullah Zeynəl-abidin anasını itirdiyi kimi atasını çox erkən itirir. Buna görə də kiçik yaşlarından bibisinin himayəsinə verilərək Meys qəsəbəsinə gəlir. Bura gəlişi də bir ilahi lütf olduğunu çox sonra öz kitablarında qeyd edən Şəhid Sani ilkin dini tədrisinin davamını böyük ruhani Cəfər Dəfəkidən alır. Daha sonra təhsilini davam etdirmək üçün Suriyaya, Şam şəhərinə gəlir. Burada O, Şeyx Muhəmməd ibn Məkkidən fiqh, fəlsəfə, qiraət elmini öyrənir. Daxilən elmə olan həvəsi ona təhsilinin davamı olaraq Misirə çəkir. 1537-ci ildə Həcc səfərinə gedən Şəhid Sani səfərdən sonra Qüdsə gəlir. O burada əhli-sünnənin böyük alimlərindən olan Şeyx Şəmsəddün ibn Əbu Lətifənin yanında təhsilini genişləndirərək «Səhihi Buxari» və «Səhihi Müslim» kitablarından rəvayət nəql edib şərh etmək icazəsi alır.

İctimai-siyasi vəziyyətin durumunu diqqətə alan Şəhid Sani təkcə şiə elmi, fiqhi ilə deyil eyni halda sünni fiqhinə yiyələnməsi Osmanlı ipmeriyasının təsiri altında olan bütün müsəlman ölkələrində Şəhid Sanini arzulanan şəxsə çevirir. Məhz bu səbəb idi ki, 1545-ci ildə Şəhid Sani İstanbulda dərs tədris etmək icazəsi alır və şəhərin mərkəzi məscidlərindən birində tədrisə başlayır. O İstanbulda yaşadığı dövrdə şiə əqidəsinə aid çox dəyərli kitablar bəxş etmə imkanı əldə edir. Şəhərin tanınmış ruhanisi Qazı Əsgər Muhəmməd Şəhid Saninin yazdığı bəzi kitabları ilə yaxından tanış olduqdan sonra Ona istanbulun istənilən bucağında dərs vermək icazəsini verir. Qeyd edək ki, Şəhid Əvvəlin fiqhi janırda yazdığı «Lümətül Dəməşq» kitabına çox sonralar yüzlərcə şərh içində «Ər-Rövzətil Bəhiyyə» adlı ən kamil şərh yazan

Şəhid Sani bu şərhlər içində əvəzsiz olan kitabını yazır.

Sonrakı illərdə Livana, Bəəlbəkə dəvət alan Şəhid Sani dini tədrisini genişləndirmək üçün Livana qayıdır. Bura döndükdən qısa müddət sonra Şəhid Sani İslam dünyasının böyük müctəhidi, əvəzolunmaz ruhanisi kimi öz həqiqi simasını almağa başlayır. Onun sonsuz elmi dəyərlərindən faydalanmaq üçün dünyanın müxtəlif yerlərindən alimlər Şəhid Sani ilə görüşə tələsirlər. Bütün məzhəblərin fiqhi dəyərlərini çox mükəmməl bilən Şəhid Sani burada tədrisi müddətində saysız tələbələrin əhatəsində olaraq onların ruhunu oxşayacaq tədrislə onların ruhunu sirab edir. Dəyərli ömrünü tədrislə daha çox keçirən bu böyük şəxsiyyət ictimai hadisələrdə fəallığı ilə yanaşı fiqh, üsul, hədis, dua, kəlam, təfsir, Xalq və mədəniyyət sahələrini əhatə edən 70-dən artıq elmi əsərin sahibi də olmuşdur. Hansı ki, bu əsərlərin bəziləri bu gün dini tədris ocaqları üçün xüsusi əhəmiyyət daşımaqdadır.

Əlbəttə ki, dövrün həm məzhəbi qara qəlbli şəxsləri, həm də nüfuz baxımından hakimiyyətdə oturan şəxslər Şəhid Sanini bu qədər böyük və nüfuza malik olan şəxs kimi tanımaqdan heç də xoşlanmırdılar. Digər tərəfdən öz kürsüləri üçün Şəhid Sanini potensial təhlükə görən hakim dairələr istənilən səbəblə onun səsini batırmağa ciddi cəhd göstərirdilər. Şəhid Saninin uzaq görənliyi onun qarşıya gələn hər bir təhlükədən qoruduğu kimi ona qarşı hazırlanan məkirli planların daha sərtinə qurban olmaq hədəfindən uzaqlaşdıra bilmədi.

Günlərin birində sünni və şiə əqidələrinə məxsus iki şəxs arasında ciddi problem baş qaldırır. Onlar hər ikisi Şəhid Saninin yanına gələrək məsələnin həll etməsini Şəhid Sanidən istəyirlər. Şəhid Sani məsələni araşdırıb şiə əqidəsində olan şəxsin haqlı olduğunu digər şəxsə bildirir. Məsələnin əleyhinə olması ilə razılaşmayan şəxs şəhər qazisinin yanına şikayətə gedərək Şəhid Saninin məzhəbi hisslərinə qapılaraq rafizi məntiqi ilə çıxardığı qərarın haqsız olduğunu bildirir. Şəhər qazisinin onsuzda məzhəbi ziddiyyəti Şəhid Sanini sevmədiyi üçün qısa zamanda Osmanlı padşahı Sultan Səlimə məktub yazaraq saxta fikirləri həqiqət kimi təqdim edib padşahdan «rafizi» (rafizi uzun zaman əhlisünnə alimlərinin şiələrə atdıqları böhtandır. Mənası da dindən çıxmış, dinsiz deməkdir) əqidəsinin başçısı üçün qərar çıxarmasını istəyir. Məktubu alan Sultan Səlim insanlar içində guya dinsizliyi yaymaqda ittiham olunan Şəhid Saninin tez bir zamanda həbs olunaraq sarayına gətirilməsi hökmünü verir.

Onun axtarışına qalxırlar. Həcc səfərində olan Şəhid Sani yolda yaxalanır. Heç bir günahı olmadığını sübut etməyə çalışan Şəhid Sani israrlı etirazı gördüyü zaman bir neçə kilometr aralıda olduqları Məkkə əməllərini icra etmək üçün onu həbs etmiş şəxslərindən icazə alır. Həyatının son günlərini Allahı ilə ünsiyyətdə, birbaşa dua və münacatda keçirən Şəhid Sani Məkkə, həcc əməllərini bitirdikdən həmən sonra həbs olunur. Şəhid Sani İstanbula gətirilir. Hər kəs bilir ki, Şəhid Sani Sultan Səlimin sarayına gətirilsə Sultan onun ilk sətirindən günahsız olduğunu anlayıb onu bağışlayacaq. Əlbəttə ki, bu əqidə ziddiyyəti olan, şiə əqidəsi heç bir vəchlə həzm edə bilməyən şəxs üçün çox çətin idi. Elə bu səbəb idi ki, şəhər qazisi qərara gəlir ki, Şəhid Sanini öldürüb onun günahkar başını Sultan Səlimə aparmaqla özünə haqq, Şəhid Saniyə isə müdafiə olunmaq imkanı verməsin. İstanbul yaxınlığındakı xaraba Şəhidin son durduğu məkan olur.

1558-ci ildə günorta namazından sonra qazi qərar çıxarır ki, Şəhid Saninin ölüm hökmünü elə bu xarabalıqda da icra olunsun. Qəlbindəki nifrət səbəbi ilə Şəhidi dəhşətli qətlə yetirmək hökmü verən qazi divarın daxilindən ipə bağlanaraq Şəhid Saninin başını bədənindən ayırmaq hökmü verir. Beləcə divarın dəliyindən başı çıxarılan Şəhid Saninin ata bağlanın başı atın sürülməsi ilə bədənindən ayırılır. Qazi başı Sultan Səlimə apardıqda hadisə daha kəskin hal alır. Saray əyanları, Şəhid Sanini tanıyanlar baş verən hadisədən dəhşətə gələrək bu işin mümkünsüzlüyünü Sultan Səlimə bildirirlər. Sultan Səlim çıxarılmış qərar müqabilində qazini cəzalandıraraq onu da eyni cəza ilə ölümə məhkum edir.

Elə həmin gecə kənd cammatı Şəhid Saninin şəhid olduğu xarabalıqdan qəribə nur xaric olduğunu görürlər. Nə olduğunu anlamayan kənd camaatının xarabaya axını zaman başsız bədənin ətrafa nur saçdığının şahidi olurlar. Xəbərə şəhərin və kəndlərin sakindəri axışıb gəlir. Mübarək bədənin nur saçması Şəhid Saninin dəyərli, Allah müqabilində pak bir insan olmasını bir daha nümayiş etdirirdi. İnsanlar toplanıb elə xarabalıqda da Şəhid Saninin mübarəək bədənini dəfn edirlər. Hal-hazırda «Zeynəddin Vəli» türbəsi olaraq tanınan Şəhid Saninin məzarı bütün Türkiyənin inanclı kütləsi üçü ziyarət ocağıdır.

# KRASVORD

KRASVORD



*Eninə*

*3. Məhərrəmliyin 10-cu günü*
*6. Allahın dostu*
*8. Vacib əməllərdən biri*
*9. İmam Əlinin qızı*

*Aşağı*

*1. Allahın evi*
*2. İmamlarımızın sayı*
*4. Orucluq ayı*
*5. Peyğəmbərin (s) qızı*
*6. Musa Peyğəmbərin möcüzəsi*
*7. Müqəddəs şəhər*



*Eninə*

*4. Azərbaycanda ziyarətgah*
*7. İnsanı yoldan çıxaran*
*9. Məsumların sayı*
*10. Duaları eşidən*

*Aşağı*

*1.İsa Peyğəmbərə (s) göndərilən kitab*
*2. Gündəlik namazlaın sayı*
*3. Peyğəmbərin məzarı bu şəhərdədir.*
*5. İmam Əlinin (ə) qızı*
*6. İmam Hüseynin şəhid olduğu gün*
*8. Musa Peğiğəmbərə (ə) göndərilən kitab.*

# *Şeytandan Məktub*

***Səni dünən gündəlik işlərini edərkən gördüm.***

***Namaz qılmadan, dua etmədən bir günü daha keçirdin. Hətta yemək yeyərkən və yatarkən belə dua etmək üçün vaxt ayırmadın.***

***Çox nankorsan! Səninlə qürur duyuram.***

***Mənimlə olduğun üçün, necə çox xoşbəxt olduğumu deyə bilmərəm. Xatırlayırsan? İllərdir bərabərik amma səni hələ də sevmirəm.***

***Düzünü deyim sənə: Səndən ALLAHdan nifrət etdiyim üçün nifrət edirəm.***

***ALLAH məni cənnətdən atdığı üçün məndə səni istifadə edirəm. Səni də ALLAHın mənə etdiklərini ödətdirənə qədər istifadə edəcəyəm,***

***ondan sonra səndə rədd olub gedə bilərsən...***

***Bilirsən ağılsız!***

***ALLAH səni sevir. Amma sən həyatın boyunca mənim yanımda idin. Bunun üçündə səni mükafatlandıracam.***

***Həyatını cəhənnəm edəcəm. Biz ikimiz birlikdə olduqca, bu ALLAHı çox incidəcək.***

***Zaman sənin həyatını kimin istiqamətləndirdiyini ONA göstərəcək. Və bu sənin sayəndə olacaq.***

***Keçirdiyimiz gözəl günləri xatırla, insanları necə incidirdik, Onlara küfr edirdik, əxlaqsız məkanlara gedirdik. Oğurluq edirdik, necə ikiüzlü davranırdıq, içki içirdik, məscidə getmirdik, qiybət qırırdıq edirdik.....***

***Bunların hamısını itirmək istəmərsən elə deyilmi?***

***Onda gəl axmaq! Sonsuza qədər birlikdə yanaq!***

***Sənin üçün çox şeylər düşünürəm.***

***Bu məktubu sənə nə qədər dəyər verdiyimi söyləmək və həyatının böyük bir parçasını istifadə etməyimə icazə verdiyinə təşəkkür etmək üçün yazıram. Yeni nəsilə yalançılığı, aldatmağı, qumarı və məscid yerinə diskolara getməyi öyrət. Sən bunları onların yanında et ki, onlarda səni nümunə götürsünlər. Bir müddət sonra onlarda eynisini edəcəklər...***

***Nə isə, indi getməliyəm amma bir neçə saniyə sonra təkrar səni görməyə gələcəm.***

***Azca ağılın olsaydı tövbə etmək üçün bir yerlərə gedərdin və yaşayacaq olduğun bir neçə ili də ALLAHla birlikdə keçirərdin.***

***Birini xəbərdar etmək xarakterimdə yoxdur əslində, amma səni tanıyıram.***

***Sən onsuz da mənim yanımdan ayrılmarsan.***

***Sənin yaşında olan bir insanın hələ günah işləməyə davam etməyi axmaqlıq olsa da...***

***Məni səhv başa düşmə, səndən hələ nifrət edirəm və bu belə davam edəcək...***

***Məni həqiqətən sevirsənsə, təbii ki bu yazını kimsəylə paylaşmazdın...***

***Ölüm bizi görüşdürənə qədər...***

# DEMOTİVATORLAR



Gözəl söz söyləyən heç kimdən pis söz eşitməz...



Qiyamət günü hara getmək istəyirsənsə hazırlığını ona görə et...



Gedənin arxasından baxmayın; Yoxsa gələni görə bilməzsiniz.



Eqoizm, gözünə ilişmiş ayna kimidir. o gözlər hara baxsa baxsın özündən başqa birini görməz...



Stəkandakı su niyə “yarımçıqdır” deyə kədərlənəcəyinə, “yarısı da olsa var” deyə sevinənlərdən ol !...



Sahib olacağın hər şey, bir gün itirəcəyin şeylərdən yalnız biridir



İnsan ürəyi bir sandıqdır; Dodaqlar onun kilidi, Dil isə açarıdır… İnsana o açarı yaxşı mühafizə etmək düşər



Başqalarına qarşı zəfər qazanan qüvvətlidir, öz nəfsinə qarşı zəfər qazanan isə qüdrətlidir..



HƏYAT nə qədər gözəl olardı …; Bir insan həm AŞİQ, həm də SADİQ olmağı bacara bilsəydi..!



Nə qədər az yüksəkdən uçsan, düşdüyün zaman o qədər az inciyərsən.



Vücudun rahatı az yeməkdə olduğu kimi,ruhun rahatlığı az günah etməkdədir....



İki şeyi istiyərik amma tapa bilmərik:xoşbəxtlik və rahatlıq...bunlar Cənnətdə olur...



Ağac nə qədər yüksək olursa olsun, yarpaqları yenə də yerə tökülər.



İşlətdiyiniz günahları gizlətdiyiniz kimi etdiyiniz yaxşılıqları da gizləyin...!



Ölmək fəlakət deyil,əsl fəlakət öldükdən sonra baş verəcəklərdən xəbərsiz olmaqdır...